

# Zakir Həsənov azad edilmiş ərazilərə getdi

*Müdafiə naziri Zakir Həsənov azad edilmiş ərazilərdə aparılan tikinti işləri ilə tanış olub. Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda...*

Səh.2


# UNİKAL

№07 (2141) 17 fevral 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Elmar Məmmədyarovun yolu ilə gedənlər...

# Ermənistanın yeni sülh oyunu...



Səh.9

## Cinayət məsuliyyətinə cəlb edilən sabiq attaşe sonuncu olacaqmı?

*Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanın Koreyadakı Səfirliyində maliyyə məsələləri üzrə attaşe işləmiş Nəcib Osmanovun cinayət məsuliyyətinə cəlb edildiyi açıqlandı.Bu barədə məlumatdan aydın oldu ki, sabiq attaşe 2021-2022-ci illərdə attaşe işlədiyi müddətdə dövlət büdcəsindən səfirliyə ayrılmış 347 min manat vəsaiti mənimsəməkdə ittiham olunur. Onun barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb, barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.*

Səh.5

## "Bölgəni Rusiya, ABŞ və Avropanın poliqonuna çevirmək olmaz"



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin Azərbaycana səfərindən, Ruben Vardanyanın yenidən Xankəndinə qayıtmasından, Ermənistanın xarici işlər...*

Səh.4

## Şərurlu İsfəndiyarın özünəarxayınlığı



*Türkiyədə zəlzələdən sonra saxlanılan tikinti şirkətlərindən birinin rəhbərinin illər öncə mətbuata verdiyi müsahibəsi üzə çıxıb. Şirkət rəhbəri müsahibəsində bildiribmiş ki, o, heç birinci sinfə də getməyib, fəhləlikdən yüksələrək şirkət rəhbəri olub. Onun bu müsahibəsi "Şərur" MTK-nın rəhbəri İsfəndiyar...*

Səh.6

## Media reyestri nəyə xidmət edəcək?



*Bir müddətdir ki, media təsisatlarının reyestrdən keçməsi məsələsi müzakirə olunur. Bəziləri bunu fikir, söz azadlığına maneə kimi qiymətləndirsə də, media ekspertləri media reyestrinin peşəkar medianın formalaşmasına xidmət edəcəyi qənaətindədir. Bəs görəsən media reyestri fikir, söz azadlığına...*

Səh.11

# Tərana Səmədova qızını dilənçiliyə məcbur edib?



***Xəbər verdiyimiz kimi, prodüser Təranə Səmədova Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham olunaraq, həbs olunub.***

"Unikal" Bizim.Media-ya istinadən xəbər verir ki, prodüser Tarix Əliyev (Tolik) aparıcısı olduğu "Ümid ilə gəl" ictimai-sosial verilişində həmkarı haqqında sosial şəbəkələrdə yayılan xəbərlərə aydınlıq gətirmək üçün Azərbaycan uşaqlar birliyinin sədri Kəmalə Ağazadəni canlı yayıma qoşub.

Tolik bildirib ki, Təranə Səmədovanın iki qız övladı 13 yaşlı Suel və 7 aylıq Adel hazırda Azərbaycan uşaqlar birliyinin sığınacağına yerləşdirilib. Aparıcı həmçinin əlavə edib ki, müğənni Rəqsanə İsmayılova Təranənin qızlarını öz evində saxlayıb.

Sözügedən faktı təqdiqləyən K.Ağazadə məsələ ilə bağlı bu açıqlamanı verib: "Bir neçə gün əvvəl qonşularımdan zəng gəldi. Onlar söylədilər ki, Təranə Səmədovanın uşaqları çox acınacaqlı vəziyyətdədir. Uşaqlar ananın şiddəti ilə qarşılaşıblar. Onlar küçədədirlər. Ilk olaraq qonşuların İcra Hakimiyyətinə müraciət etmələrinə istədim. Bu məsələ çox həssasdır. Burada mütləq həm hüquq mühafizə orqanları, həm İcra Hakimiyyəti, həmdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kompleks şəklində uşaqların müdafiəsini həyata keçirməlidir. Təranə barədə həbs qəti imkan tədbirləri seçildi. Rəqsanə isə uşaqları bir neçə günlük yanında saxladı".

Tolikin "Təranə evinin önündə qızı Sueli qucağında yeddi aylıq digər qızı Adel ilə dilənçiliyə məcbur edib?" sualına isə sığınacağın təsisçisi "Hazırda Suelin sığınacağımızda adaptasiya dövrü başlayıb. Onlar birinci gecəni bizdə keçirdilər. Hər şey qaydasındadır. Suel ailəsində o qədər xoşaqəlməz hadisələrlə qarşılaşıb ki, bu sığınacaq onun üçün sanki, rahat mühitə çevrilib. Diqqət, qayğı görüb. Bu məsələ ilə bağlı qonşular da məlumat verib, eyni zamanda Suelin bəzi danışdıqları var. Amma bunlara hüquqi qiymət verilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mütəxəssislərini dəvət edəcəyəm. Bizim psixoloq da Suel ilə ilkin söhbətlər aparıb. Bir neçə gündən sonra artıq uşağın vəziyyəti ilə bağlı açıqlama verəcəyəm. Bu gün onlar tibbi müayinədən keçməyə göndərildi. Yeddi aylıq Adeldə sağlamlığı və inkişafı ilə bağlı geriləməyi var. Bu problemi aradan qaldırmalıyıq. Qaldı ki, uşaqların gecə saatlarında küçədə olma faktı məsələsini Rəqsanə də mənə deyib" deyə cavab verib.

Aparıcının "Şayiələr gəzir ki, güya Suel anasından imtina etmək istəyir. Rəqsanə isə mənə söylədi ki, Təranə həbs olunmazdan əvvəl beş gün narkoloji reabilitasiya mərkəzində müayinələrdə olub" sözlərinə K. Ağazadə belə münasibət bildirib: "Bəli bir məlumat var. Bizdə bu məsələ ilə bağlı adiyyatı dövlət qurumlara müraciət edəcəyik".

Verilişin gedişatında Tolik Suelin atası nağara ifaçısı Abbas Cəfərovun qızına aliment verilməsi ilə bağlı proqramda ekspert qismində iştirak edən vəkil Şəfiqə Nağıyevaya müraciət edib. Vəkil isə bu məsələdə onlara yardımçı olacağını dilə gətirib.

# "Efirə çıxmaq səhnədə olmaq demək deyil" - Elmira Ələkbərzadə

***Müğənni Elmira Ələkbərzadə efirə çıxmamasının səbəbindən danışıb.***

"Unikal" xəbər verir ki, bu barədə sənətçi olay-a özəl açıqlama verib. O bildirib ki, efirə çıxmaq səhnədə olmaq demək deyil:

"Mən səhnədəyəm. Hər gün efirə çıxmaq səhnədə olmaq demək deyil. Arada efirlərə çıxıram. Ola bilsin ki, siz televiziyalara baxmırsız. Mən də, Sevda Ələkbərzadə də çox az hallarda ekrana çıxırıq. Pəhriz saxlamışam, əzab-əziyyətlə arıqlamışam".





# Röya Ayxan xərçənglə mübarizə aparan uşağın arzusunu yerinə yetirdi

***Xalq artisti Röya Ayxan Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında müalicə alan uşaqlarla görüşüb.***

Məşhur sənətçi 15 Fevral - Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günü ilə bağlı belə bir addım atıb.

"Ayan Babazadənin ən böyük arzularından biri mənimlə görüşmək imiş. Buna biganə qala bilməzdim. Görüşümüz elə maraqlı keçdi ki. Onun üçün "Ayan" mahnısını oxudum, digər uşaqlarla birgə dedik, güldük, əyləndik. Hədiyyələrini verdik. Hisslərimi yazmaqda çətinlik çəkirəm. Bu gün həm də Beynəlxalq Uşaq Xərçəng Xəstəlikləri ilə Mübarizə Günüdür. Onlarla bağlı arzularım çoxdur. Hamınızı sağlam, ailənizin yanında görmək istəyirəm. Mənim balaca dostlarım, sizi sevirəm", - R. Ayxan instaqramda yazıb.

# "Ölüm anı yaxınlaşanda övladıma görə qorxdum" - Aygün Bəylər

***"Həyatımın Aylı hissəsi xəstələndiyim anlar oldu, ancaq yatırdım. Günəşli hissəsi isə musiqiyə həsr etdiyim illərimdir. Hər zaman istəmişəm həyatımda özüm kimi dostum olsun. Var da...".***



Bu sözləri Əməkdar artist Aygün Bəylər "Həmin Zaur" verilişində deyib. Bir müddət əvvəl xərçəngdən müalicə alan xanəndə qızından danışıb:

"Ölüm anı yaxınlaşanda qorxdum ki, mən tək olmuşam. Övladım da o yaşda tək qalmasın. Həyatda bütün gözəlliklərimi - gözəl hisslərimi, yaşımı, cavanlığımı, sağlamlığımı sənətə qurban verdim. İncəsənət qurban tələb edir".

Qeyd edək ki, A.Bəylərin 13 yaşında Canan adlı qız övladı var.



## Baş nazir spirtli içki və siqaretlə bağlı qərar imzaladı

***Azərbaycanda istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların siyahısı təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

"Məlum olduğu kimi, dövlət tərəfindən kölgə iqtisadiyyatının miqyasının azaldılması, sahibkarlıq subyektlərinin şəffaf şəkildə fəaliyyət göstərməsi, habelə qanunsuz sahibkarlıqla mübarizə tədbirləri davamlı və ardıcıl olaraq həyata keçirilir. Həyata keçirilən bu tədbirlər müasir dövrdə informasiya texnologiyalarının aktiv şəkildə tətbiqini zəruri edib.

Bu məqsədlə İqtisadiyyat Nazirli yanında Dövlət Vergi Xidməti tərəfindən Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat "Track and Trace" ("Təqib və İzləmə") sistemi yaradılmış və tətbiqin bu sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur.

Belə ki, Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat "Track and Trace" ("Təqib və İzləmə") sisteminin tətbiqi istehsaldan və idxaldan son istehlakçıyadək olan bütün dəyər zənciri üzrə aksiz markası ilə markalanmalı malların dövriyyəsinə nəzarəti həyata keçirməyə imkan verir ki, bu da öz növbəsində kölgə iqtisadiyyatının aradan qaldırılmasında, aksizli malların və aksiz markalarının saxtalaşdırılmasının qarşısının alınması ilə yanaşı istehlakçıların hüquqlarının qorunmasında da mühüm rola malikdir.

"Təqib və İzləmə" Sistemi dünyanın bir çox ölkələrində müəssisə və təşkilatlar üçün strateji prioritetə çevrilmişdir. Belə ki, qeyd edilən Sistem təchizat zəncirlərinin təhlükəsizliyini və etibarlılığını yüksəldən həlləri işləyib hazırlamağa, rəqabətə davamlı mövqedə qalmağa imkan verir", - deyə qərara dair izahda bildirilib.

Aksiz markası və məcburi nişanlanma tətbiq olunan mallar:

- içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti);
- araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, konyak və konyak materialları, şampan şərabı, likör və likör məmulatları;
- şərab və şərab materialları;
- pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli içkilər, energetik içkilər və tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan).

Məcburi nişanlanmalı olan mallar:

- tütün məmulatları;
- elektron siqaretlər üçün maye;
- istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;
- qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları;
- birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri.

Bu mallar məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müsadirə edilərək satıldığı təqdirdə həmin mallara aksiz markası tətbiq edilir.

# Cahangir Əsgərovdan narazılıq pik həddə çatıb

### Minlərlə tələbə Türkiyədən dönmək istəyərkən belə biletləri ucuzlaşdırmayan AZAL-dan nəsə gözləmək artıq mənasızdır

***Türkiyədə baş verən zəlzələ ilə bağlı yaranmış vəziyyət, xüsusən də universitetlərdə müəyyən müddətdə onlayn təhsil sistemine keçilməsi səbəbindən təhsil alan bir çox azərbaycanlı tələbə vətənə dönmək istəsə də, qarşılarında ciddi əngəl var - təyyarə biletlərinin bahalığı!***



Bir neçə gündür cəmiyyətdə bu məsələ ətrafında müzakirələr gedir, "Azərbaycan Hava Yolları" QSC (AZAL) isə ənənəsinə sadiq qalaraq belə müzakirələrə, ünvanına səsləndirilən ittihamlara qarşı susqunluğunu qoruyur. Cahangir Əsgərovun rəhbərlik etdiyi qurumun ictimai rəyə etinasızlığı yeni olmadığından bu təəccüb doğurmur. Yəqin elə ona görədir ki, iqtisadçı-ekspert Natiq Cəfərli problemə başqa prizmadan yanaşıb. Deyib ki, ehtiyacı olanların qardaş ölkədən təxliyəsi ilə bağlı birbaşa dövlətin özü məşğul olmalıdır. Sitat: "Bu cür dəstəklə AZAL kasıblamaz. Oradan 8-9 pulsuz reys təşkil etməklə istəyənlərin geri dönməsini təmin eləmək olar. Yeri gəlmişkən, zəlzələ bölgəsində Antep, Hatayın hava limanı istifadəyə verilib. Çarter reysləri ilə bölgədə olan azərbaycanlı vətəndaşlar və tələbələrin həmin bölgələrdən təxliyə olunması mümkündür. Dövlət üçün bu reyslər qəpik-quruşdur... Bir təyyarənin çarter reysi ilə zəlzələ bölgələrindən istəyənləri, tələbələri geri qaytarması 25 min dollardır. Yəni 10 reys olsa, 250 min dollar edir ki, bu da elə böyük vəsait deyil".

Digər tərəfdən, yazının əvvəlində də vurğuladığımız kimi, Türkiyədə baş verən zəlzələ nəticəsində universitetlərdə onlayn təhsil sisteminə keçilir. Səbəb isə zəlzələ nəticəsində zərər çəkmiş vətəndaşların tələbə yataqxanalarında yerləşdirilməsidir. Qeyd edək ki, Türkiyədə 27 minə yaxın tələbə təhsil alır. Onlayın təhsilə keçidlə bağlı tələbələr Azərbaycana gəlmək istəsə də, ciddi problemlə üzləşirlər. Belə ki, sosial şəbəkələrdə tələbələr təyyarə biletlərinin qiymətinin baha olduğunu vurğulayırlar.

İndiki vəziyyətdə tələbələrə dəstək üçün AZAL-ın qiymətlərdə endirim etməsi, yaxud digər dəstək üsullarından istifadə etmək mümkündürmü? Məsələ ilə bağlı millət vəkili Razi Nurullayev "cebhe.info" saytına bildirib ki, Türkiyədə təhsil alan və distant təhsilə keçidlə bağlı azərbaycanlı tələbələrin vətənə dönməsi istəyinin şahididir: "Sosial şəbəkələrdə və mediada bunu oxudum. Əslində məndə fərqli hisslər yaratdı. Fikrimcə, həmin tələbələrin ucuz qiymətə biletlər almasına da ehtiyac yoxdur. Onlar Azərbaycan vətəndaşlarıdır və Türkiyədə qalıblar, planlaşdırlmamış təbii fəlakətin nəticəsində bu ağır vəziyyətə düşdülər. Tələbənin pulu olmur, hər zaman maddi dəstəyə ehtiyacı var. Ona görə də hökumət bununla bağlı qərar verib, onları pulsuz olaraq çarter reysləri ilə Azərbaycana gətirməlidir. Onlar bizim vətəndaşlarımızdır, niyə biz onlardan pul güdməliyik? Həmin tələbələr kefləri üçün Azərbaycana gəlmir. Bu, baş verən təbii fəlakətin nəticəsində dərslərin distant təhsil sisteminə keçirilməsi ilə bağlıdır".

Deputat da iqtisadçı-ekspert kimi məsələnin həlli üçün böyük vəsaitə ehtiyac olmadığı qənaətindədir: "Bu, böyük xərc tələb etmir. Ümumilikdə 7-8 təyyarə reysi olarsa, onları vətənə gətirə bilərlər. Onları gətirməyə dövlətimizin gücü yoxdurmu? Təbii ki, var. Sadəcə təşkil etmək lazımdır..."

Göründüyü kimi, artıq cəmiyyətdə AZAL-ın təyyarə biletlərini hətta fors-major vəziyyətlərdə belə ucuzlaşdıracağına dair heç bir inam qalmayıb. Bütün gözlənti hökumətdəndir. Belədə ortaya lakonik sual çıxır: bir halda ki, Cahangir Əsgərovun rəhbərlik etdiyi QSC indiki xüsusi situasiyada da "baha uçuş bileti" ənənəsinə sadiqdir, onun adi günlərdə təyyarə biletlərini ucuzlaşdıracağına ümid eləmək sadəlövhlük deyilmi?

Bir sözlə, AZAL-dan ucuz, daha doğrusu, vətəndaşın cibinə uyğun qiymət siyasətinə keçməyi tələb eləməyin artıq bir mənası qalmayıb. Görünən odur ki, cəmiyyətin az qala bütün təbəqələrindən gələn çağırışlara biganə yanaşmağı vərdiş halına çevirən, öz fantastik qiymət siyasətinə bütün situasiyalarda sadiq qalan "Azərbaycan Hava Yolları"ndan ucuzlaşma ümidini tamamilə kəsməliyik.

Bircə ona ümid eləməliyik ki, barı, bütün bunların müqabilində AZAL-ın 2 milyard manata yaxınlaşan borcu azalsın, bu dövlət şirkəti artıq zərərlə işləmək təcrübəsinə son qoysun. Yəni, heç olmasa, büdcə üzərində ağır yük olaraq qalmağa davam eləməsin...

***Toğrul Əliyev***

# Ali Məhkəmə ictimai fəlla bağlı qərarı ləğv etdi

***Ali Məhkəmə həbsdə olan ictimai fəal Abid Qafarovla bağlı qərarı ləğv edib.***

Hakim İlqar Qılıcovun sədrliyi ilə keçirilən iclasda Bakı Apellyasiya Məhkəməsinin qərarı tamamilə ləğv edilib. İş yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilib.

Qeyd edək ki, A.Qafarov ötən ilin iyulunda bir qrup qazi tərəfindən



verilmiş xüsusi ittiham qaydasında şikayət əsasında həbs edilib. O, qaziləri təhqir etməkdə, onları "müti" adlandırmaqda ittiham olunub.

Cinayət Məcəlləsinin 147 (böhtan) və 148-ci (təhqir) maddələrilə təqsirli bilinib. Yasamal Rayon Məhkəməsinin qərarı ilə 1 il müddətə azadlıqdan məhrum edilib. Apellyasiya Məhkəməsi hökmdən verilmiş şikayəti təmin etməyib.

# Ermənistanın yeni sülh oyunu...

## Paşinyanın sülh anlaşmasını Bakıya təqdim etmələri haqda son açıqlaması gözə kül üfürməkdən başqa bir şey deyil



***Bir müddət öncə Ermənistan mətbuatında Paşinyanın partiyadaşları ilə sülh müqaviləsinin detallarını müzakirə etdiyi barədə məlumat yayılmışdı. Artıq İrəvan bununla bağlı rəsmi mövqeyini ifadə edib. Belə ki, hökumətin iclasında Ermənistan baş naziri Nikol Paşinyan deyib ki, artıq bu istiqamətdə müvafiq addımlar atılıb.***

Onun sözlərinə görə, Ermənistan Respublikası dünən sülh müqaviləsi layihəsi üzərində işin növbəti mərhələsini başa çatdırıb, sənəd Azərbaycana və həmsədr ölkələrə təhvil verilib. "Biz layihə üzərində işləyirik, istənilən an imzalamağa hazır olduğumuz sənədi əldə etmək istəyirik. Aydındır ki, bu sənəd Azərbaycan üçün də məqbul olmalıdır və biz ümid edirik ki, danışıqlar nəticəsində müəyyən irəliləyiş əldə etmək mümkün olacaq. Bizim baxışımız belədir ki, sənəddə uzunmüddətli sülhün pozulmasının hər hansı mümkün ssenarisini istisna edəcək razılaşma məntiqi, tarazlıq və çəkindirmə mexanizmi yer almalıdır. Məsələ ondadır ki, absurd səslənsə də, müqavilənin imzalanması müharibəyə səbəb olmamalıdır, əksinə, əslində uzunmüddətli sülhə gətirib çıxarmalıdır. Mən əsl sülhə gətirib çıxaracaq belə bir sülh müqaviləsini imzalamağa və bu məsuliyyəti öz üzərimə götürməyə hazır olduğumu bir daha təsdiq edirəm", - deyə Paşinyan bildirib.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Paşinyanın dediyi sənəd təxminən 3 həftə əvvəl Azərbaycan tərəfindən onlara göndərilib: "Cavab olaraq isə bir sıra düzəlişlərlə Ermənistanın mövqeyini əks etdirən məktub göndərilib. Sənədlərin mətni qapalıdır. Cavabı göndərməzdən əvvəl Ermənistan Təhlükəsizlik Şurasının sədri Qriqoryan deyib ki, Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi və hüquqları barəsində danışıqlar nəzərdə tutulmalıdır və bu sənəddə öz əksini tapmalıdır. Yəni, onların mövqeyi dəyişməz olaraq qalır. Mən əminəm ki, sənəddəki tək problem bundan ibarət deyil. Digər düzəlişlər də edilməlidir. Bu onu göstərir ki, Ermənistan rəhbərliyi real danışıqlar yox, həmişə olduğu kimi danışıqlar görüntüsü yaratmaq istəyir. Ona görə də Ermənistana çox da ümid bəsləmək olmaz, çünki hələlik görünən odur ki, onlar Azərbaycana qarşı ərazi iddialarına son qoymaq fikrində deyillər".

Millət vəkili Sahib Alıyev hesab edir ki, Paşinyanın sülh anlaşmasının mətni üzərində növbəti mərhələni də tamamlayıb təklifləri ilə birgə Bakıya təqdim etmələri haqda son açıqlaması gözə kül üfürməkdən və boşboğazlıqdan başqa bir şey deyil. Onun qənaətincə, Ermənistan rəhbərliyi Münxen konfransı öncəsi bununla guya sülhə hazır olduqlarını, anlaşmanın mətni üzərində ciddi işlədiklərini sergiləmək niyyəti güdür: "Əslində isə məqsəd məsləhət verənlərinin təkidi ilə geosiyasi vəziyyət onların xeyrinə dəyişənədək danışıqlar prosesini uzatmaqdır. Belə görünür ki, Paşinyanla komandası ikinci Qarabağ savaşından lazimi dərsi çıxarmayıblar. Yenə də 3 il öncə deyilənlər təkrarlanır, guya bunlar elə bir sülh anlaşması istəyirlər və təklif edirlər ki, orada "bütün tərəflərin maraqları nəzərə alınıb". Bir halda ki, onlar qərbdəkilərin də tez-tez dilə gətirdikləri hərtərəfli sülh anlaşmasına tərəfdardırlar, maraqlıdır Paşinyana məsləhət verənlərin sayları Qarabağdakı haylardan bir neçə dəfə çox olan soydaşlarımızın Ermənsitandakı yurd yerlərinə dönüşünün orada əksini tapmasını istəyirlərmi, buna hazırdırlarmı? Əlbəttə yox. Bəs onda o, hansı məntiqlə Qarabağa açıq iddianın, örtülü iddia ilə əvəzlənməsini, yaxın perspektivdə olmasa da, orta və uzaq perspektivdə yenidən "miatsum" deyə bağrılmasını ön görən təkliflərin bizim də maraqlarımıza cavab verdiyini deyir? O, aralarında Fransa kimi Azərbaycana qarşı düşməncəsinə siyasət yeridən dövlətin olduğu Minsk qrupu həmsədrlərini yenidən oyuna qoşmaq cəhdlərinin nə anlam daşıdığını dərk etməyəcək qədər əbləhdirmi? Paşinyan əgər tezliklə sülhə hazırdırsa, onda Praqa danışıqlarından sonra planlaşdırılan Brüssel gürüşünü "Fransa Prezidenti orada olmasa, məndə getməyəcəm",- deyərək niyə pozdu. Avropa Birliyi platformasında keçiriləcəyindən həmən görüşdə moderatorluğu Şarl Mişel edəcəkdi, elə isə Makron Ermənistan baş nazirinin nəyinə lazım idi, hansı funksiyanı yerinə yetirəcəkdi?".

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistan hökumətinin Bakıya göndərdiyi sülh sazişinin mətnində yenə Qarabağla bağlı bənd varsa, bu dəfə də heç nə alınmayacaq: "Paşinyan mətni Bakıya göndərdikdən sonra Münhen Təhlükəsizlik Konfransına gedəcək və orada özünü "sülhpərvər" kimi göstərməyə çalışacaq. Paşinyanın Münhendə arqumenti bu olacaq ki, "sülh təkliflərinə" Bakıdan cavab gözləyir. Təsadüfi deyil ki, İrəvan mətni keçmiş həmsədr dövlətlərə - ABŞ, Fransa və Rusiyaya da göndərib. Paşinyan beynəlxalq aləmin diqqətini cəlb etmək məqsədilə başqa bir hiyləyə də əl atıb, "Qarabağın təhlükəsizliyi beynəlxalq təminat altında olmalıdır" fikrini yaymağa başlayıblar. Paşinyana və beynəlxalq aləmə hər dəfə anlatmaq lazımdır ki, Qarabağda separatçılar tərksilah olunmayana və bölgədə Azərbaycan qanunlarının tətbiqi təmin edilməyənə qədər təhlükəsizlik məsələlərinə baxılmayacaq".

***Murad İbrahimli***



## Dövlət Xidməti internet portallarında araşdırmalara başlayıb

***İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən reklam fəaliyyətinə dövlət nəzarəti məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçirilir. Aparılan monitorinqlər və Dövlət Xidmətinə daxil olan müraciətlərin təhlili zamanı bir sıra internet portallarında mövcud qanunvericiliyin tələblərinə zidd olaraq qanunsuz idman mərc oyunlarının reklam edildiyi müəyyən olunub.***

Bu barədə Xidmətdən bildirilib. Qeyd edilib ki, bu cür reklamlarda həmin qanunsuz oyun və lotereyalarda iştirakın cəmiyyətdə nüfuz qazanmaq vasitəsi olması fikri aşılanır, həmçinin qazanc əldə edilməsinə zəmanət verilməsinə dair fikirlər də yer alır ki, bu da müvafiq qanunvericiliyin tələblərinə ziddir.

İdman obyektlərində, eləcə də bədən tərbiyəsi-sağlamlıq tədbirləri və yarışlarının keçirildiyi digər yerlərdə reklamın yerləşdirilməsi və yayımı qaydası, habelə idman mərc oyunlarının reklamına dair tələblər "Reklam haqqında" Qanunla tənzimlənir. Qanuna əsasən, mərc oyunları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada akkreditasiya olunmuş hüquqi şəxs (idman mərc oyunlarının operatoru) tərəfindən həyata keçirilir.

Qumar oyunları, həmçinin "Bədən tərbiyəsi və idman haqqında" və "Lotereyalar haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada dayandırılmış, ləğv edilmiş və ya keçirilməsi qadağan edilmiş idman mərc oyunlarının və lotereyaların reklamı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmiş "Reklamı qadağan olunan əmtəələrin Siyahısı"na daxil edilib. Dayandırılmış, ləğv edilmiş və ya keçirilməsi qadağan edilmiş idman mərc oyunlarının reklamına yol verilmir.

Məlumat üçün bildiririk ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən, qumar oyunlarının və ya belə oyunların təşkilatçısının (operatorunun) və satıcısının, həmçinin keçirilməsi qadağan edilmiş və ya keçirilmə hüququ əldə edilməmiş stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların reklamına görə fiziki şəxslər 3 min manat, vəzifəli şəxslər 7 min manat, hüquqi şəxslər isə 40 min manat məbləğində cərimə olunur.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu cür reklamların yerləşdirilməsi ilə əlaqədar araşdırmalara başlayıb. Araşdırmaların nəticələrinə uyğun olaraq, qanun pozuntularına yol vermiş bazar subyektləri barəsində tədbirlər görüləcək.

## "Azərişıq": Ağdamda 2 Transformator yarımstansiyası tikiləcək

***Ağdamda 35 kV-luq 4x2500 kVA gücündə 2 ədəd Transformator yarımstansiyasının tikintisi, 35 kV-luq kabel xətlərinin çəkilməsi nəzərdə tutulur.***

Bunu Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Ağdam şəhərində keçirilən Şəhərsalma üzrə işçi qrupunun növbəti iclasında "Azərişıq" ASC-nin nümayəndəsi Vüsal Qəmbərov deyib.

O bildirib ki, xətlərin çəkilməsi üçün yolların şəhərsalma planına uyğun olaraq vahid səviyyəyə gətirilməsi gözlənilir. Yarımstansiya binasında tikinti işləri yekunlaşdırılır. Avadanlıqlar və kabel sifariş olunub.

# İlham Əliyev litvalı həmkarını təbrik etdi



***Prezident İlham Əliyev Litva Respublikasının Prezidenti Gitanas Nausedaya təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Litva Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram. Azərbaycan ilə Litva arasında münasibətlər xoş ənənələrə malikdir və biz bu münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk. Keçən ay Sizinlə Davosda keçirdiyimiz görüşü və apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin genişlənməsi, əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkanlar formalaşmışdır. İnanıram ki, Azərbaycan-Litva münasibətləri və qarşılıqlı faydalı əməkdaşlığımız həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir. Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıram".

# "Azərbaycanlı qardaşlarımızı unutmayacağıq" - Əminə Ərdoğan



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.***

"Unikal" xəbər verir ki, o, bunu tviter səhifəsində yazıb. "Sizin dərdiniz bizim dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. Humanitar yardıma, xüsusən də axtarış-xilasetmə qrupları göndərdiyinə görə Azərbaycana və əziz dostum Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm", - paylaşımda qeyd edilib.

# Azərbaycanda daha 2 nəfər koronavirusdan ÖLDÜ



***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 17 yeni yoluxma faktı qeydə alınıb, 33 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

# Zakir Həsənov azad edilmiş ərazilərə getdi

***Müdafiə naziri Zakir Həsənov azad edilmiş ərazilərdə aparılan tikinti işləri ilə tanış olub.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir hərbi infrastrukturun yaradılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə tikintisi davam edən bir neçə hərbi obyektdə görülən işlərlə tanış olub.

Məruzə olunub ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi və digər infrastruktur obyektləri, eləcə də hərbi qulluqçular və onların ailə üzvləri üçün yaşayış binası tikilir. Bütün obyektlərin müasir avadanlıqlarla təchiz olunmasının nəzərdə tutulduğu qeyd edilib.

Tikinti-quruculuq işlərinin gedişatını yoxlayan müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Nazirlik MEDIA ilə birgə təlim-seminar keçirdi

***Fevralın 16-da Elm və Təhsil Nazirliyinin Medianın İnkişafı Agentliyi ilə birgə təşkil etdiyi "Effektiv kommunikasiya" mövzusunda təlim-seminar keçirilib.***

Təlim-seminarın keçirilməsində əsas məqsəd elmi və ali təhsil müəssisələrinin sosial media hesablarının təhlili, kommunikasiya alətlərindən düzgün istifadə, kommunikasiyanın təşkili və digər istiqamətlərlə bağlı bilik, bacarıqları təkmilləşdirmək, media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsinə töhfə verməkdir. Təlim-seminarda AMEA-nın nazirliyin tabeliyinə verilən elmi müəssisə və universitetlərinin ictimaiyyətlə əlaqələrə məsul əməkdaşları, eləcə də media nümayəndələri iştirak ediblər.

Açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsində aparılan islahatlardan danışıb. O bildirib ki, bu islahatların əsas hissəsi cəmiyyətlə düzgün kommunikasiyanın təşkil edilməsidir. Jurnalistlərin peşəkarlığının artırılması istiqamətində Agentliyin həyata keçirdiyi işlərdən bəhs edən Əhməd İsmayılov müvafiq dövlət orqanlarının əməkdaşları üçün təlimlərin təşkil olunduğunu, media savadlılığının artırılması üçün də vacib addımlar



atıldığını diqqətə çatdırıb.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli də öz növbəsində bildirib ki, bu gün əsas məsələ elmin populyarlaşdırılmasıdır. İnformasiyaların daha çox fakta yönləndirilməsi, yanlış məlumatların verilməməsi olduqca vacibdir və elmin cəmiyyətlərdə təbliği üçün ciddi addımlar atılmalıdır.

Sonra çıxış edən AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev sözügedən təlim-seminarın təşkilindən məmnunluğunu ifadə edib.

Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov "Elmi müəssisə və universitetlərin sosial media hesablarının təhlili" mövzusunda təqdimatla çıxış edib.

Təlim-seminarın davamında Medianın İnkişafı Agentliyinin eksperti Pərvanə İbrahimova "Media savadlılığı", "Alibayov" kommunikasiya və konsultinq şirkətinin rəhbəri Vəli Əlibəyov "Uğurlu kommunikasiyanın qurulması, kommunikasiya alətlərindən düzgün istifadə", təlimçi Toğrul Ələkbərov "Effektiv təqdimat bacarıqları", təlimçi Fəxri Ağayev "Şəxsi və peşəkar inkişaf", ictimaiyyətlə əlaqələr və kommunikasiya üzrə mütəxəssis Azər Nəzərov "Təhsil müəssisələri üçün PR və kommunikasiyanın əsasları", həmçinin Təhsil TV-nin rəhbəri Rəşad Cəfərov "Təhsil TV ilə əməkdaşlıq imkanları" mövzularında çıxış edərək təcrübələrini bölüşüblər.

Təlim-seminar çərçivəsində müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Sahibə Qafarova Mərakeş səfirilə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova Mərakeş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarşla görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Modern.az-a verilən xəbərə görə, grüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərlə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, ölkələrimiz arasında münasibətlər qarşılıqlı hörmətə əsaslanır və siyasi sahədə yaxşı əlaqələr mövcuddur. Azərbaycanla Mərakeş beynəlxalq təşkilatlar çərçivəsində daim yaxından əməkdaşlıq edir, bir-birini dəstəkləyir. Mərakeş Azərbaycanın beynəlxalq səviyyədə, xüsusilə Qoşulmama Hərəkatı çərçivəsində təşəbbüslərini hər zaman dəstəkləyib.

Görüşdə münasibətlərin genişlənməsində qarşılıqlı səfərlərin rolu vurğulanaraq, bildirilib ki, bu səfərlər təkcə dövlətlərimiz arasında deyil, insanlarımız arasında da əlaqələrin dərinləşməsinə töhfə verə bilər. Xalqlarımız bir çox ortaq baxışları bölüşürlər. Multikulturalizm, digərlərinə hörmət, islamofobiyanın rədd edilməsi kimi məsələlər xalqlarımızın tarixi-mənəvi dəyərləri sırasındadır.

O cümlədən, qeyd olunub ki, deputatlar arasında təmasların, qarşılıqlı səfərlərin artırılması parlamentlərimiz arasında daha geniş əlaqələrin yaradılmasına imkan verə bilər. Həmçinin, parlamentlərimizdə fəaliyyət göstərən dostluq qruplarının əməkdaşlığı, onların birgə fəaliyyətinin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, parlamentarilərimizin birgə işləyə biləcəyi islamofobiyaya, beynəlxalq münasibətlər sistemində müşahidə olunan ikili standartlara qarşı birgə mübarizə və bu kimi digər mövzular çoxdur.

Milli Məclisin sədri Sahibə Qafarova Mərakeşin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində fəal iştirakı, o cümlədən, bu



platformanın Madriddə keçirilən təsis, Bakıda keçirilən Birinci konfransında təmsil olunmasını yüksək qiymətləndirərək, Parlament Şəbəkəsinin institusional inkişafı, qarşıda duran vəzifələr barədə danışıb.

Görüşdə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbə, ərazi bütövlüyümüzün bərpa olunması, hazırda işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verilib, Azərbaycan və Mərakeşin ərazi bütövlüyü məsələsində də bir-birini dəstəklədiyi diqqətə çatdırılıb.

# Ceyhun Bayramov və Çavuşoğlu zəlzələ ilə bağlı vəziyyəti müzakirə etdi

***Fevralın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.***

Bu barədə "Unikal"a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, telefon danışığı zamanı Türkiyədə böyük insan tələfatı və güclü dağıntılara səbəb olan zəlzələ nəticəsində zərərçəkmiş əhalinin xilas olunması, humanitar yardım göstərilməsi istiqamətində aparılan əməliyyatların və işləri üzrə son vəziyyəti müzakirə edilib.



Baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə bağlı bir daha başsağlığı diləklərini çatdıran nazir Ceyhun Bayramov zəlzələ nəticəsində xəsarət almış şəxslərə şəfa diləyib.

Nazir Azərbaycanın hər zaman olduğu kimi bu çətin günlərdə də qardaş Türkiyənin yanında olduğunu, baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində öz dəstəyini davam etdirəcəyini bildirib.

O, qardaş Türkiyənin bu ağır sınaqdan da üzüağ çıxacağına dair inamını əminliklə ifadə edib.

Telefon danışığı zamanı Türkiyə xarici işlər naziri Mevlüt Çavuşoğlu həmçinin zəlzələ bölgəsində son vəziyyət, xilasetmə əməliyyatlarının gedişatı barədə ətraflı məlumat verib.

Telefon danışığı zamanı həmçinin, bölgədə mövcud vəziyyət, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Media savadlılığının gücləndirməsi üçün vacib addımlar atılır" - Əhməd İsmayılov

***"Media sahəsində aparılan islahatlar sürətlə davam edir. Bu islahatların əsas hissəsi cəmiyyətlə düzgün kommunikasiyanın qurulmasıdır".***

"Unikal" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Effektiv kommunikasiya" mövzusunda keçirilən təlim-seminarda çıxışı zamanı deyib.

O bildirib ki, hazırda jurnalistlərin peşəkarlığının artırılması istiqamətində işlər həyata keçirilir. Agentliyin icraçı direktoru əlavə edib ki, media savadlılığı inkişaf etmədikcə problemlər yaşanacaq. Ə.İsmayılov qeyd edib ki, müvafiq dövlət orqanlarının əməkdaşları üçün təlimlər keçirilir, media savadlılığının gücləndirməsi üçün vacib addımlar atılır.



# Arzu Rəhimov Sabirabadda vətəndaşların problemlərini dinlədi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin 2023-cü ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-polkovnik Arzu Rəhimov fevralın 16-da Sabirabadda Saatlı, İmişli, Beyləqan, Xocavənd və Sabirabad rayonlarından olan vətəndaşların qəbulunu həyata keçirib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstəsi qoyulub.

Xidmət rəisi, general-polkovnik Arzu Rəhimovun keçirdiyi qəbulda 21 vətəndaşın müraciəti dinlənilib. Müraciətlər əsasən həqiqi hərbi xidmətə və ya işə qəbul, veteran adı və vəsiqəsinin verilməsi, övladının xidmət yerinin müəyyənləşdirilməsi, qismən səfərbərliklə əlaqədar təşkilatların və vətəndaşların mülkiyyətində olan nəqliyyat vasitələrinə vurulmuş zərərin ödənilməsinə köməkliyin göstərilməsi, eləcə də digər məsələlər ilə bağlı olub. Qəbul zamanı vətəndaşların müraciətlərinin həlli ilə bağlı mövcud qanunvericiliyin tələbləri izah edilib, araşdırılmasına ehtiyac olan məsələlər qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi üçün nəzarətə götürülüb. Bəzi vətəndaşlar tərəfindən qaldırılan və Xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılması üçün qeydiyyata alınıb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün daha rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Ağdama ilk qayıdış bu tarixdə baş tutacaq

***İşğaldan azad edilmiş Ağdam şəhərinə və rayonun digər kəndlərinə köçün 2025-ci ildən həyata keçirilməsi nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Namiq Hümmətov bildirib.

O, bu barədə Şəhərsalma Məsələləri üzrə İşçi Qurupun Ağdamda keçirilən iclasında danışıb.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərə ilk köç Zəngilan rayonunun Ağalı kəndinə baş tutub.



# Kamran Əliyev Naxçıvan Prokurorluğunda 2 nəfəri işdən çıxardı



***Baş prokuror Kamran Əliyevin müvafiq əmrləri ilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun İstintaq şöbəsinin rəisi İlqar Əsgərov və NMR Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin böyük prokuroru Əsrafil Əsgərov öz arzularına əsasən tutduqları vəzifədən azad olunaraq prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib.***

Bundan başqa, Kamran Əliyevin müvafiq əmri ilə NMR Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin rəisi vəzifəsinin icrası vəzifəsi Ramal İbrahimovun üzərindən götürülərək o, həmin şöbənin böyük prokuroru vəzifəsinə təyin edilib.

Bundan əlavə, müvafiq əmrlə Vüqar Hüseynova NMR Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin rəisi vəzifəsinin icrası həvalə edilib.

# Hüquq müdafiəçilərinin əfv siyahısı - Onların arasında tanınmışlar da var



***Hüquq müdafiəçiləri Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasına bəzi məhbusların azadlığa buraxılması ilə bağlı siyahı ünvanlayıb.***

Bu barədə Modern.az-a Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu məlumat verib.

Onun sözlərinə görə, Komisiyaya göndərilən siyahıda 28 nəfərin adı yer alıb. N.Cəfəroğlu hazırladıqları siyahıda bəzi tanınmış şəxslərin olduğunu söyləyib: "Bizim siyahıya jurnalistlər, bloqerlər, siyasi motivlərlə həbsdə olanlar daxil edilib. Eyni zamanda Gəncə və Tərtər hadisələri zamanı həbs olunan, xəstəliyi olan məhbusların adlarını yazmışıq. Biz həm də xahiş edirik ki, ömürlük həbsdə olanlarla bağlı qərar qəbul olunsun. 20 ildən çox həbsdə olan, cəmiyyətə təsir gücü qalmamış insanlar azadlığa buraxılsın. Məsələn, "Qaranquşlar", "OMON"çuların tərkibində olan insanların hamısı müharibədə iştirak edib. Həmin qruplaşmaların üzvlərindən kim 20 il həbsdə olubsa, azadlığa buraxılsın. Məncə, bununla bağlı qərar yerinə düşərdi".

N.Cəfəroğlu humanitar məqsədlə əfv üçün müraciət etdiklərini vurğulayıb: "Biz istəyirik ki, böyük əfv olsun. Nə ABŞ, nə də Qərb bizim üzümüzə siyasi məhbus məsələsini vura bilsinlər. Biz eyni zamanda humanitar siyahı da təqdim etmişik. Sabiq deputat Hüseyn Abdullayev, keçmiş baş prokuror Eldar Həsənov xəstədirlər. Onların xəstəlikləri nəzərə alınmaqla, əfv olunmasını istəyirik".

Qeyd edək ki, yanvardan başlayaraq indiyədək Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının dörd iclas keçirib. Ümumilikdə 600-dən çox müraciətə baxılıb.

Əfv sərəncamının Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində, may ayında imzalanması gözlənilir.

# Nazir yeni rektoru kollektivə təqdim etdi

***Azərbaycan Rəssamlıq Akademiyasının yeni rektoru Natiq Əliyev kollektivə təqdim olunub.***

"Unikal" xəbər verir ki, tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, eləcə də təhsil müəssisəsinin pedaqoji kollektivi iştirak ediblər.

Nazir Natiq Əliyevin akademiyaya rektor təyin olunması ilə bağlı sərəncamı diqqətə çatdırıb və yeni rektora fəaliyyətində davamlı uğurlar arzulayıb.

Rektor Natiq Əliyev ona göstərilən etimada görə minnətdarlığını bildirib və üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirəcəyini söyləyib.




## Xankəndi-Laçın yolunda sülhməramlıların avtomobilləri maneəsiz keçib

***Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 11 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.***

Toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, 1 minik və 10 yük avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkət edib. Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 2 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Belə ki, 1 minik və 1 yük avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkət edib. Bununla da bu gün bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 13-ə çatıb. Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 3 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Belə ki, 1 minik, 1 zirehli və 1 yük avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkət edib. Bununla da bu gün bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 16-ya çatıb. Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Xatırladaq ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası iki aydan çoxdur fasiləsiz olaraq davam edir.

Ötən ilin dekabrın 12-də səhər saatlarından başlayan aksiyanın artıq 67-ci günüdür. Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

# "Bölgəni Rusiya, ABŞ və Avropanın poliqonuna çevirmək olmaz"

## Qabil Hüseynli: "Bu proseslərin baş verməsinin qarşısını almaq üçün həm Ermənistan, həm də Azərbaycan çalışmalıdır"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevin Azərbaycana səfərindən, Ruben Vardanyanın yenidən Xankəndinə qayıtmasından, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Türkiyəyə səfər etməsindən və başqa məsələlərdən danışıb.***

***-Qabil müəllim, fevralın 14-də Rusiyanın Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev Prezident İlham Əliyevin qəbulunda olub. Xovayevin səfəri zamanı hansı məsələlərin müzakirə olunduğunu düşünürsüz?***

-Səfər zamanı Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi məsələsi müzakirə mövzusu idi. Bu məsələlər ətrafında müəyyən fikirlər səsləndirildi. Hazırda Rusiyanın fikri sülh müqaviləsinin imzalanmasından daha çox Ermənistandakı müəyyən prosesləri, qərbyönümlü siyasəti, Avropa Birliyinin mülkü missiyasının bölgəyə gətirilməsini önləməkdir. Tutaq ki, İrəvanda Ermənistanın baş naziri Nikol Paşinyanla müəyyən söhbətlər etsələr də, Azərbaycan Prezidenti ilə İqor Xovayev daha ciddi məsələləri, birbaşa Ermənistanla bağlı məsələləri də yəqin ki, müzakirə ediblər. Bizim istəyimiz sülh müqaviləsinin imzalanması və bölgədə əminamanlığın yaradılmasıdır. Rusiyanın dərdi bölgədə qalmaq, Cənubi Qafqazı Qərbə verməmək və Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsinin isə bu ölkə üçün neçənci dərəcəli iş olduğunu demək çətindir. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun 10 gündən öncəki çıxışından sonra Rusiyanın indiki davranışları səmimi görünmür. Doğrudur, Rusiyadan səmimiyyət tələb etmək də o qədər asan məsələ deyil. Amma Rusiya hazırda Ukraynada çətin vəziyyətdədir, dünya tərəfindən sıxılır. Guya, üzünü Azərbaycan və Türkiyəyə çevirib. Bu məsələdə axıra qədər səmimi olmaq lazımdır. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirib, həmin ərazi bütövlüyü çərçivəsində suverenliyin təmin ediləcəyinə dəstək verəcəyini söyləyib. Amma işdə bunun elə də ciddi şahidi olmuruq.

***-Azərbaycanın Qarabağ iqtisadi bölgəsində, özünü Xankəndidəki qanunsuz rejimin "dövlət naziri" kimi təqdim edən rusiyalı milyarder Ruben Vardanyan Moskvadan yenidən Xankəndinə qayıdıb. Bununla bağlı fikirlərinizi bilmək istərdik...***

-Bəli, Ruben Vardanyanı qaytardılar. Zənnimcə, Vardanyan özü gəlmədi. Onun özünə qalsa idi, bəlkə də gəlməyəcəkdi. Rusiya bildirirdi ki, Vardanyan onun layihəsi, vassalı deyil. Onun vətəndaşlıqdan çıxmış erməni olduğunu deyirdilər. Amma indi aparıb-gətirməklə göstərirlər ki, bəli, Rusiyanın vassalıdır, onların dediklərini yerinə yetirir. Rusiya Vardanyandan axıra qədər istifadə etmək niyyətindədir. Ona tapşırılmış işlər içərisində birinci yeri Ermənistanda siyasi hakimiyyət dəyişikliyinə cəhd etmək, Nikol Paşinyanın devrilməsindən sonra siyasi olimpin zirvəsinə dırmaşmaqdır. Bunu silahlı çevrilişlə, yoxsa hansısa başqa vasitə ilə edəcəyini söyləmək çətindir. Belə görünür ki, Rusiya bölgəni qarışdırmaqla bağlı böyük plana sahibdir. Bunun da nə qədər real olduğunu söyləmək çətindir. Amma indidən guya, Nikol Paşinyan ölkədən xaricə qaçır kimi hədyanları uydurub dövriyyəyə buraxıblar. Zənnimcə, Rusiyanın bölgədəki fəaliyyəti destruktivdir. Azərbaycana da verdiyi vədlərin üstündən qaçmağa hazırdır.



***-Hazırda Cənubi Qafqazdakı vəziyyəti necə qiymətləndirirsiz?***

-Bu regionda vəziyyəti gərgin qiymətləndirirəm. Bunun da səbəbi fövqəldövlətlərin öz strateji, geosiyasi maraqlarını bu bölgədə axtarmasıdır. Bölgədə gərgin vəziyyətə ilk növbədə təkan verən Rusiyadır. Ondan heç də geri qalmayan Avropa Birliyinin bölgəyə mülkü missiyalı müşahidəçilər göndərməsi də vəziyyəti gərginləşdirən amillərdəndir. Bunlar bölgədə sülh yaradılması prosesində ciddi əngəllər yaradır, Ermənistanla Azərbaycanın dil tapmasını çətinləşdirir. Bölgəni Rusiya, ABŞ və Avropa Birliyinin qarşıdurmasına və yaxud, poliqonuna çevirmək olmaz. Bu proseslərin baş verməsinin qarşısını almaq üçün həm Ermənistan, həm də Azərbaycan çalışmalıdır. Azərbaycan bu yolda qətiyyətlidir. Amma Ermənistanın nə dərəcədə konstruktiv rol oynaya biləcəyini söyləmək çətindir.

***-Bildiyiniz kimi, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyaları 70 günə yaxındır davam edir. Necə düşünürsüz, aksiya nə zamana kimi davam edəcək və yeni tələblər olmalıdırmı?***

-Aksiyanın tələblərində dəyişiklik ola da bilər, olmaya da bilər, amma aksiyalar davam etməlidir. Qarabağ ərazisində olan Ermənistan silahlı qüvvələrinin törtöküntülərinin oradan təmizlənməsi birinci yerdə dayanır. Həmin təmizləmə əməliyyatından sonra Xankəndi erməniləri ilə ciddi, üzbəüz danışıqlar prosesi başlamalıdır. Bu danışıqlar rəsmi yox, sadəcə olaraq köhnə sakinlərin Azərbaycana inteqrasiya məsələlərinin müzakirəsi ola bilər. Yəqin ki, bu, gündəmdə duran əsas məsələdir. Buna Rusiya sülhməramlı qüvvələrinin təsir etmək imkanları minimum səviyyədədir. Azərbaycan bu məsələləri həll etməkdə qərarlıdır və həll edəcək.

***-Fevralın 15-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Türkiyəyə səfər edib və həmkarı Mövlud Çavuşoğlu ilə görüşü keçirilib. Mirzoyanın bu səfərini necə qiymətləndirirsiz?***

-Bu səfəri normal qiymətləndirirəm və hər halda uğurlu gedişdir. Bu, bölgəyə sülh gətirmək istiqamətində müəyyən rol oynaya bilər. Çünki prosesin həm də Türkiyədən asılı olduğunu başa düşən ermənilər bu ölkə ilə münasibətləri yaxşılaşdırmaq xəttini yürüdürlər. Bu da nəticə verə bilər. Amma bilirik ki, Türkiyə o zaman Ermənistanla münasibətləri qaydaya salacaq ki, ilk növbədə Ermənistan Azərbaycanla münasibətləri qaydaya salacaq. Bölgədə münasibətlərin tənzimlənməsi kompleks xarakterli, Türkiyə, Azərbaycan və Ermənistanı əhatə edən prosesə çevriləcək. Bundan sonra möhkəm, təminatlı sülh, əlaqələr haqqında, hətta diplomatik münasibətlərin yaradılmasından danışmaq mümkün olacaq.

***-Fevralın 6-da Türkiyənin cənub-şərqindəki Kahramanmaraş vilayətində baş vermiş zəlzələlər on minlərlə insanın ölməsinə və yaralanmasına səbəb olub. Bu baxımdan, may ayında qardaş ölkədə keçirilməsi nəzərdə tutulan seçkilər təxirə salına bilərmi?***

-Düşünürəm ki, seçkilər təxirə salına bilər. Türkiyənin 81 vilayətindən onunda zəlzələ baş verib. 13 milyon insanın həyatı alt-üst olub. İndi həmin insanları yerbəyer etmək, onların mənzillə, lazımi imkanlarla təmin edilməsi gündəmdədir. Bunu da yalnız indiki iqtidar uğurla edə bilər. Hazırda bu proseslərin həll edildiyi bir zamanda cəmiyyətdə seçkiqabağı diskusiyalar, seçki ilə bağlı iqtidar-müxalifət münasibətləri və s. gündəmə gəlsə, bütün dünya buna gülər. İndi əsas məsələ yaraları sarımaqdır. Bu məsələni də ən yaxşı edə biləcək qüvvə indiki AKP-dir. Seçkilərin təxirə salınması ən düzgün variant olar. Düşünürəm ki, belə də olacaq.

***Anar Kəlbiyev***

# Elmar Məmmədyarovun yolu ilə gedənlər...

## Cinayət məsuliyyətinə cəlb edilən sabiq attaşe sonuncu olacaqmı?

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanın Koreyadakı Səfirliyində maliyyə məsələləri üzrə attaşe işləmiş Nəcib Osmanovun cinayət məsuliyyətinə cəlb edildiyi açıqlandı.Bu barədə məlumatdan aydın oldu ki, sabiq attaşe 2021-2022-ci illərdə attaşe işlədiyi müddətdə dövlət büdcəsindən səfirliyə ayrılmış 347 min manat vəsaiti mənimsəməkdə ittiham olunur.***

Onun barəsində Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə), 308 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham irəli sürülüb, barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.



Cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə araşdırılır. Hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib, seçilmiş qətimkan tədbiri dəyişdirilmədən saxlanılıb. İş üzrə Xarici İşlər Nazirliyi zərərçəkmiş qismində tanınıb.

Qeyd edək ki, sabiq nazir Elmar Məmmədyarovun zamanında xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə korrupsiya halları ilə bağlı çoxsaylı faktlar aşkarlanmışdı. Məsələn, 2015-ci ildə Azərbaycanın Niderland və Belçika krallıqlarındakı səfirliklərində, o cümlədən NATO yanındakı nümayəndəliyində maliyyə pozuntusu, qanuna zidd əməllər, dövlət vəsaitindən qeyri-qanuni istifadə etmə halı ortaya çıxmışdı. Bu barədə, Hesablama Palatasının hesabatında bildirilirdi. Hesabatda deyilirdi ki, qeyd olunan səfirliklərdə nəzarət tədbirləri nəticəsində bəzi hallarda vəsaitin Vahid Büdcə Təsnifatı ilə təsdiq edilmiş iqtisadi təsnifat kodu dəyişdirilməklə icra edildiyi müəyyən olunub. Məsələn, diplomatik nümayəndəliklərin saxlanılması üçün nəzərdə tutulan vəsait hesabına bəzi hallarda iqamətgahın və kommunikasiya xidmətlərinə, icbari sığortasına və təmin işlərinə, xərclər smetasında nəzərdə tutulmadığı halda əməkdaşlar üçün xarici dil kurslarının təşkil edilməsinə, əməkdaşların tibbi sığortası olduğu halda tibbi xərclərə vəsait ödənildiyi ortaya çıxıb.

Yaxud Azərbaycanın Gürcüstan Respublikası, Mərakeş Krallığı və Qazaxıstan Respublikasındakı səfirliklərində maliyyə nöqsanları aşkarlanıb. Bu barədə isə Hesablama Palatasının 2017-ci ildə fəaliyyəti üzrə hesabatında bildirilib. Ümumilikdə hər üç səfirlikdə 51 177,9 ABŞ dolları və 775,4 avro maliyyə pozuntusu aşkarlanıb.

Daha bir nümunə: Azərbaycanın Türkiyədəki səfirliyinin 2019-cu il üzrə fəaliyyətində də nöqsanlar aşkarlanıb. Bu barədə də Hesablama Palatasının 2019-cu il üzrə hesabatında məlumat yerləşdirilib. Aydın olub ki, Azərbaycanın Ankaradakı səfirliyi büdcə üzrə dörd, əsaslı vəsait qoyuluşu üzrə iki nöqsana yol verib. Səfirlik mühasibat uçotu və hesabatlılıq qaydalarını da pozub. Bununla bağlı səfirlikdə iki hal aşkar edilib.

Belə örnəklərin sayını artırmaq olar. Lakin gərək görmürük. Elmar Məmmədyarovun XİN başçısı olduğu zaman yalnız nazirliyin özündə deyil, diplomatik nümayəndəliklərdə də yeyinti halları adət halını almışdı. İndi isə Azərbaycanın Koreyadakı Səfirliyində maliyyə məsələləri üzrə sabiq attaşesinin cinayət məsuliyyətinə cəlb olunması bir çoxlarının hələ də keçmiş nazirin yolu ilə getdiyini göstərir. Xatırladaq ki, daha öncə 2022-ci ilin birinci yarısında Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin (Xidmət) mərkəzi aparatı və onun regional maliyyə müfəttişlikləri tərəfindən 52 təşkilatda (nəzarət obyektləri) aparılan yoxlamalarla ümumilikdə 99.910,5 min manat məbləğində artıq və əsassız ödənişlər aşkarlandığı barədə rəsmi açıqlama yayılmışdı.

Maliyyə Nazirliyindən verilən həmin açıqlamada qeyd olunurdu ki, həmin məbləğin 33.502,5 min manatlıq hissəsinin yoxlamaların gedişində və yoxlamalardan sonrakı dövrdə təqsirkar şəxslər tərəfindən dövlət büdcəsinə nağd qaydada ödənilərək bərpası təmin edilib.

Xidmətin mərkəzi aparatı və onun regional maliyyə müfəttişlikləri tərəfindən 2022-ci il üçün təsdiq olunan iş planına əsasən 2022-ci ilin birinci yarısında 14 təşkilatda aparılmış yoxlamalarla aşkar olunan 2919,4 min manat məbləğində artıq və əsassız ödənişlərin 108,0 min manat hissəsinin yoxlamaların gedişində və yoxlamalardan sonrakı dövrdə təqsirkar şəxslər tərəfindən dövlət büdcəsinə ödənilərək bərpası təmin edilən, həmin nəzarət obyektlərindən 2 təşkilat üzrə aşkar olunan 2811.4 min manat məbləğində nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlama materialları Dövlət Təhlükəsizliyi Xidmətinə göndərilib. Ümid edək ki, aidiyyatı qurumların ayıqlığı, araşdırmaları, sərt hüquqi reaksiyaları hələ də ağlı Elmar Məmmədyarovun zamanına gedən, onun nazir olduğu dövrdə olduğu kimi büdcə vəsaitlərini talamağa çalışan şəxslərə dərs olacaq, diplomatik korpusumuz bələlərindən qısa vaxtda tamamilə təmizlənəcək.

***Sənan Mirzə***

# Füzuli, Ağdam, Xocavənd və Tərtərdə 16 min ev tikiləcək



***2022-2026-cı illərdə Füzuli, Ağdam, Xocavənd və Tərtər rayonlarında 15 999 evin tikintisi planlaşdırılır.***

Bunu Şəhərsalma Məsələləri üzrə İşçi Qrupunun Ağdamda keçirilən iclasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib.

"Baş plan ilk olaraq Ağdamda təsdiq olunduğu üçün burada bir neçə pilot layihə tətbiq ediləcək. O cümlədən 2 yaşayış məhəlləsinin layihələndirilməsinə başlanılıb, daha 2 layihə nəzərdə tutulur. 2023-cü ildən bu layihələr hissə-hissə yerinə yetiriləcək. Dövlət kifayət qədər vəsait ayırıb. 2026-cı ilə qədər bir çox iqtisadi hədəflər qarşınıma qoyulub. Füzuli, Ağdam, Xocavənd və Tərtər rayonlarında çoxsaylı infrastruktur layihələri icra edilir. Prezident tərəfindən təməli qoyulmuş layihələr üzrə işçi qrupları formalaşdırılır", - deyə o qeyd edib.

# Mehriban Əliyevanın tapşırığı ilə daha bir təyyarə Türkiyəyə getdi

***Türkiyədə dəhşətli zəlzələnin baş verdiyi bölgəyə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə fevralın 16-da səhər daha bir humanitar yardım daşıyan təyyarə yola düşüb.***

"Unikal" xəbər verir ki, 105 tonluq humanitar yardım aparan təyyarə ilə qardaş ölkəyə zəlzələdən zərər çəkmiş insanların soyuq qış aylarında ən çox ehtiyac duyduqları qızdırıcılar və çadırlar çatdırılacaq.

Qeyd edək ki, ötən gün də humanitar yardım təyyarəsi ilə bölgəyə çadırlar və qızdırıcılar yola salınmışdı.

Xatırladaq ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fevralın 9-dan etibarən Heydər Əliyev Fondu Türkiyəyə humanitar yardım təyyarələri göndərir. Bu yardımlar çərçivəsində zəlzələdən zərər çəkmiş şəxslərə müxtəlif dərman preparatları, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qızdırıcısı olan çadırlar, generatorlar, istilik radiatorları, çöl üçün qızdırıcılar, dizel yanacaqlı kaloriferlər, axtarış-xilasetmə işlərinə dəstək məqsədi ilə ləvazimat və avadanlıqlar çatdırılıb.

# Şagird yerdəyişməsinə başlanılır

***Şagird yerdəyişməsinə başlanılır. Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.***

Bildirilib ki, fevralın 21-i saat 11:00-dan etibarən 2023-2024-cü tədris ilinin II yarımili üzrə şagirdlərin yerdəyişməsi prosesi aktiv olacaq.

Qeyd edək ki, sözügedən tarixdən XI siniflər üzrə şagirdlərin yerdəyişməsi aparılmayacaq.

# DSX-nin müstəntiqi rüşvətə görə həbs edildi

***Dövlət Sərhəd Xidmətinin İstintaq İdarəsinin müstəntiqi Nicat Acalov həbs edilib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, o, külli miqdarda rüşvət almaqda təqsirli bilinir. İttihama görə, kapitan N.Acalov narkotik alverinə görə həbs olunmuş Faiq Məmmədovun ailəsindən onu azadlığa buraxdırmaq vədi ilə 25 min manat pul alıb.

Ötən il Faiq Məmmədovun anası Məhsəti Məmmədova adıçəkilən müstəntiqin onlardan rüşvət aldığını bildirmişdi. Belə ki, Faiq Məmmədov tutulandan sonra istintaq Nicat Acalova tapşırılıb. Müstəntiq istintaq dövründə F.Məmmədovun ailə üzvləri ilə görüşərək vəd verib ki, bir neçə gün sonra onu həbsdən buraxdıracaq. Ailənin iddiasına görə, Acalov pulun bir hissəsini hətta DSX binasının həyətində alıb.

# Parlament insan hüquqları ilə bağlı protokolu təsdiqləyəcək



***Milli Məclis "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunu təsdiqləyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə qanun layihəsi Milli Məclisin İnsan hüquqları komitəsinin ötən gün keçirilən onlayn iclasında müzakirəyə çıxarılıb.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə" qanun layihəsi müzakirələrdən sonra Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# "Tərtər işi" üzrə məhkəmə başlayır - 192 zərərçəkmiş var



***"Tərtər işi" ilə bağlı ittiham olunan 4 nəfər-Vüsal Ələsgərov, Rəşid Niftəliyev, Ramil Qarayev və Rüstəm Ələsgərovun cinayət işi Bakı Hərbi Məhkəməsi tərəfində icraata götürülüb.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, iş hakim Camal Ramazanovun sədrliyi ilə araşdırılacaq. İş üzrə 192 nəfər zərərçəkmiş qismində tanınıb.

Xatırladaq ki, 2021-ci ilin dekabr ayında Baş Prokurorluqda "Tərtər işi" ilə bağlı cinayət işlərinin icraatının təzələnməsi ilə bağlı qərarlar qəbul edilib. Sözügedən qərarlardan sonra aparılın istintaq zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verilməsi, onların qanunsuz azadlıqdan məhrum edilməsi və vəzifə səlahiyyətlərini aşılmasına əsaslı şübhələr müəyyən edilmiş bir neçə hərbçi cinayət məsuliyyətinə cəlb olunub.

Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham irəli sürülərək barələrində həbs qətimkan tədbiri seçilib.

# Nazirlik monitorinqlərin nəticələrini açıqladı



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm və Təhsil Nazirliyinin balansına keçən bəzi institutlarının loqoları hələ də yenilənməyib.***

Bakıvaxtı.az xəbər verir ki, bunu nazirliyin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov "Effektiv kommunikasiya" mövzusunda keçirilən təlim-seminarda çıxışı zamanı deyib.

O, nazirliyin kommunikasiya əməkdaşlarının elmi müəssisələrlə bağlı apardığı monitorinqlərin nəticələrini açıqlayarkən bildirib ki, nazirliyin tabeliyinə keçən bəzi institutların sosial şəbəkələrində hələ də AMEA-nın loqosu qalıb: "Loqonun nazirliyin adı ilə dəyişdirilməsi məqsədəuyğundur. Akademiyanın institutlarının bəzilərinin sosial şəbəkələrində əlaqə nömrələrinin qoyulmaması, orfoqrafik səhvlərin olması, paylaşımların sıx ardıcıllıqla edilməməsi monitorinqlərdə yer alıb".

İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev nazirliyin tabeliyinə verilən bəzi institutların loqosunun dəyişdirilməməsi və veb-saytların yenilənməməsinin səbəblərini açıqlayıb. O qeyd edib ki, institutlarla bağlı əsasnamə təsdiq ediləndən və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi yaradıldıqdan sonra veb-saytların buna uyğunlaşdırılmasına baxıla bilər: "Bundan başqa məsələnin həlli üçün maliyyə vəsaiti də lazımdır".

Qeyd edək ki, İnformasiya Texnologiyaları İnstitutunda baş tutan təlim-seminarı Elm və Təhsil Nazirliyi Medianın İnkişafı Agentliyi ilə birgə keçirir.

# Şərurlu İsfəndiyarın özünəarxayınlığı

## Bakıdakı bütün göydələnlərin təhlükəsizliyinə təminat verən tikinti maqnatı deputatın həyəcan təbilinə nə cavab verəcək?

***Türkiyədə zəlzələdən sonra saxlanılan tikinti şirkətlərindən birinin rəhbərinin illər öncə mətbuata verdiyi müsahibəsi üzə çıxıb. Şirkət rəhbəri müsahibəsində bildiribmiş ki, o, heç birinci sinfə də getməyib, fəhləlikdən yüksələrək şirkət rəhbəri olub. Onun bu müsahibəsi "Şərur" MTK-nın rəhbəri İsfəndiyar Axundovun (Şərurlu İsfəndiyar) ötən il mətbuata verdiyi müsahibəsini yada salıb.***

İ.Axundov da müsahibəsində ali təhsilli olmadığını, hətta orta məktəbdə birinci sinfə belə getmədiyini demişdi. Bəziləri bildirirlər ki, bina tikmək üçün təhsil şərt deyil. İ.Axundov "pravda.az"a müsahibəsində deyib ki, o, bu işə bənnalıqdan gəlib, əvvəllər bənna işləyib. "Tədricən briqadir, prorab işləyib, görə-görə gəlib bu səviyyəyə çatmışam. Türkiyədəki şirkətlərin layihələri də məndə var. Onlar heç bizdəki armaturun 20%-ni işlətmirlər. Düzdür, kosmetik tərəfdən çox gözəl düzəldirlər. Amma daxilən sementləri də çox keyfiyyətsiz olur. Bizim binalarla Türkiyədəkilər müqayisə oluna bilməz. Təsəvvür edin, tikdiyim binalarda lap axrıncı mərtəbədə öz övladlarımın hamısına ev götürmüşəm. Zəmanət verirəm ki, 9 bala qədər zəlzələ olarsa, bütün binalara cavab verə bilərəm. Nəinki öz şirkətimizə aid binalara, yenə də deyirəm, Fövqəladə Hallar Nazirliyi yaranandan sonra tikilən bütün binalara cavab verə bilərəm. O qədər güclü nəzarət var ki, kitab açılmayana, şəkil çəkilməyənə, akt yazılmayana qədər beton tökülmür".

Lakin deputat, Xalq şairi Sabir Rüstəmxanlının Türkiyədəki zəlzələnin ardından yayımlanan videosöhbətdə söylədikləri həyəcan təbili kimi qəbul oluna bilər. "Cibimizi doldurmaq xətrinə insanların həyatını riskə atırıq. Bakıda, Yeni Yasamalda binaları bir-birinə o qədər yaxın tikiblər, heç arada yol da qoymayıblar. Buna necə icazə verilib, necə tikilib? Bu tikənlərin gözü ayaqlarının altını görmür?" deyən millət vəkilinin sözlərinə görə, yalnız paytaxtda deyil, ətraf qəsəbələrdə də oxşar vəziyyət hökm sürür: "Xırdalanda səki belə qoymayıblar. O cür gözəl yerdə yaxşı planlaşdırma ilə evlər tikilə bilərdi. Amma insanların hərəkəti üçün səkini belə düşünməyiblər. Üstəlik, 15 mərtəbəli binanın 1-ci mərtəbəsi tikilib, ikinci mərtəbədən onu sağdan və soldan 1-2 metrə qədər genişləndiriblər. Bunu özlərinə qazanc bilirlər. Bəs, başa düşmürlər ki, bu ayaqlar o yükü daşıya bilməz?.. Zirzəmilərdə alış-veriş yerini genişləndirmək üçün dirəkləri kəsir, sütunları doğrayırlar. Sən dirəyi kəsməklə orda yaşayanların ömrünü kəsirsən axı. Ona görə də Türkiyə zəlzələsi acı bir dərsdir. Hər kəs bunu görüb düşünməlidir. Şəxsi evlər tikənlər də buna diqqət etməlidir".

Deputat sual edib ki, nəyə görə şəhərdə tikinti işləri ancaq müəyyən qrupların əlində olmalıdır: "Burda korrupsiya, rüşvətxorluq, oğurluqla məşğul olan bir çevrə yaranıb. Müəyyən idarələrin çevrəsi var ki, oraya hər adam girə bilmir. Hər şeyi onlar həll edirlər. Mən vaxtilə Milli Məclisdə demişdim ki, Bakı, ümumiyyətlə, Abşeron Nuhun gəmisinə bənzəyir. Günün birində batacaq. Yeraltı suların üzə çıxmasına 1-2 metr qalır. Bütün Abşeronu birdən-birə su basa bilər. Belə bir şəraitdə bütün tikililər - zavodlar, fabriklər, digər müəssisələr buradadır. Üstəlik bu qədər sıx şəkildə..."

Görəsən, Şərurlu İsfəndiyar millət vəkilinin bu həyəcan təbili haqqında nə düşünür? Deputatın söylədiklərindən sonra nəinki özünün, digər tikinti oliqarxlarının da inşa etdikləri göydələnlərin təhlükəsizliyinə yenə təminat verir, yoxsa ölkənin mənzil inşaatı sektorunda ciddi tənzimləmələrə, yoxlamalara ehtiyac olduğu qənaətindədir? Əlbəttə, hər birimizin arzusu İsfəndiyar müəllimin söylədiklərinə canikönüldən inanmaqdır.



Ancaq...

Məsələn, bilməyən varmı ki, Bakıda son 10-15 ildə binaların bir-birinə yaxın inşa olunması adət halını alıb və bu məsələyə nəzarətin gücləndirilməli olduğunu əksər ekspertlər söyləyirlər. Onların sözlərinə görə, hündürmərtəbəli binaların çox yaxın tikilməsi təkcə zəlzələ yox, yanğın təhlükəsizliyi baxımından da təhlükəlidir.

Yeri gəlmişkən, elə Şərurlu İsfəndiyar tərəfindən də oxşar binalar kifayət qədər inşa edilib...

Bundan başqa, bu günlərdə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli Türkiyədəki zəlzələ ilə bağlı keçirilən mətbuat konfransında bildirib ki, 2019-cu ildən sonra tikilən binalara seysmoloji rəy verilməsi üçün onlara müraciət edilməyib. Düzdür, bəzi ekspertlər deyirlər ki, buna görə əhalinin narahatlığına əsas yoxdur - hazırda bu səlahiyyətlər FHN-ə həvalə olunduğundan yaşayış binaları inşa olunarkən ərazinin seysmik vəziyyəti torpaqdan götürülən nümunələr əsasında yoxlanılır.

Lakin sosial şəbəkələrdə vətəndaşlar haqlı olaraq xatırladırlar: Türkiyədə də tikinti maqnatları "ayranlarına turş demirdilər". Bina inşa edərkən seysmoloji rəy aldıqlarını bildirirdilər. Ancaq ciddi nəzarət olmadıqdan sonra istənilən rəyin yalnız kağız parçası olaraq qaldığı ortaya çıxdı.

***Toğrul Əliyev***

# İki rayonun icra hakimiyyətində dərin qorxu...

## Hansı rayonlarda yüksək vəzifəli şəxslərin yuxusu niyə ərşə çəkilib?



***Son illər ölkədə korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə, büdcə vəsaitlərini talan edən kifayət qədər yüksək vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb olunması, onların yalnız tutduqları postları deyil, azadlıqlarını itirməsi ilə müşayiət olunan antikorrupsiya əməliyyatlarına baxmayaraq bəzi məmurlar hələ də oxşar qanunsuzluqlara imza atmaqdan çəkinmirlər. Uzağa getməyək, elə bir neçə gün öncə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti bəzi icra hakimiyyətlərində maliyyə pozuntularının ortaya çıxarıldığını açıqlayıb.***

Belə ki, Biləsuvar və Ağcabədi Rayon İcra Hakimiyyətlərində, Biləsuvar Şəhər Ərazi Nümayəndəliyi və Biləsuvar Şəhər Kommunal Müəssisələri Kombinatında əsassız ödəmələr aşkar edilib.

Maliyyə Nazirliyindən verilən məlumata görə, vətəndaş müraciətlərinə əsasən, sözügedən qurumlarda yoxlama aparılıb. Nəticədə 64,4 min manat məbləğində artıq və əsassız ödənişlərə yol verildiyi aşkar olunub.Yoxlamalarla aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi üçün yoxlamaların nəticələri üzrə tərtib edilmiş sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Qeyri-rəsmi iddialar isə adıçəkilən rayon icra hakimiyyətlərində yoxlamaların dərinləşdiriləcəyini istisna etmirlər. Söhbət ilk növbədə Hesablama Palatasının apara biləcəyi auditdən gedir.

Bundan başqa, Dövlət Maliyyə Nəzarəti Xidmətinin təqdim etdiyi sənədlər əsasında Baş Prokurorluğun başlayacağı araşdırma zamanı ortaya daha ciddi korrupsiya hallarının çıxması istisna edilmir.

Belə iddiaları qüvvətləndirən məqamlar isə kifayət qədərdir. Məsələ burasındadır ki, son bir neçə ildə adıçəkilən rayonlarda aparılan yoxlamaların nəticələri heç də ürəkaçan olmayıb. Misal üçün, Hesablama Palatası Ağcabədi Regional Mədəniyyət İdarəsinə 2017-2018-ci illərdə ayrılan büdcə vəsaitlərinin icrası üzrə aparılan auditin nəticələri haqqında məlumatdan çıxarış: artıq ştat vahidləri saxlanılıb; artıq əmək haqqı ödənilib, "Uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üzrə tədris planları"nın tələblərinə əməl edilməyərək artıq dərs saatları tarifləşdirilib, keçirilməyən dərslərə, sanatoriyada və xaricdə olan işçilərə əmək haqqı ödənilib, yerinə yetirilməyən cari təmir işlərinə görə vəsait ödənilib, "Azərbaycan Respublikası vahid büdcə təsnifatı"nın tələblərinə bir sıra hallarda əməl edilməyərək təyinatdankənar vəsait xərc edilib.Və ya: 2020-ci ildə Biləsuvar Rayon İcra Hakimiyyətinin ovaxtkı başçısı Mahir Quliyev haqqında həbs qətimkan tədbiri seçilib. Bundan əvvəl isə o, vəzifəsindən azad edilib. Həmin vaxt Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) yaydığı məlumata görə, Mahir Quliyev "vəzifə səlahiyyətlərindən sui-istifadə etmə", "təkrar rüşvət alma", "mənimsəmə faktlarına görə" ittiham olunur. Qurumun yaydığı videoda Mahir Quliyev "əməllərini" etiraf edərək, "bundan utandığını" bildirib.

Yaxud: yenə 2020-ci ildə Ağcabədi rayon Mərkəzi xəstəxanasının direktoru və digər vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib. Bununla bağlı Baş Prokurorluğun məlumatında direktor Fövzi Tahirovva Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3 (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edildiyi, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçildiyi aydınlaşıb.

Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin yuxarıda adları çəkilən icra hakimiyyətlərində maliyyə pozuntularını ortaya çıxarması belə düşünməyə əsas verir ki, həm Ağcabədidə, həm də Biləsuvarda müəyyən məmurlar yuxarıda sadalananlardan hələ də lazımi nəticələr çıxarmayıblar, "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyə davam edib. Bu da onların qanunsuz əməllərinə hüquqi müstəvidə qiymət verilməsinə zərurət yaradıb. Adıçəkilən rayonlardakı maliyyə pozuntuları ilə bağlı sənədlərin Baş Prokurorluqdakı araşdırmasının necə sonlanacağını zaman göstərəcək. Lakin bu pozuntulara yol verilən məmurların dərin qorxu içində olduğunu söyləmək mümkündür. Çünki son illərin təcrübəsi dövlət vəsaitlərinin xərclənməsində qanunsuzluqlara yol verən vəzifəli şəxslərə qarşı hüquq-mühafizə orqanlarının güzəştsiz davranıqlarını, belə qanunsuzluqlara qanun müstəvisində lazımi qiymət verdiklərini göstərir.

***Sənan Mirzə***

# "Onların haqqını yeyən bir qurum var" - Əkrəm Həsənov

***"Bir az əvvəl ləğv prosesində olan "AG Bank"ın Kreditorlar Komitəsinin açıq iclasının keçirilməsinə Əmanətlərin Sığortalanması Fondu (ADİF) tərəfindən imkan verilməyib".***



Bu fikirləri hüquqşünas, bağlanan "AG Bank"ın Kreditorlar Komitəsinin sədri Əkrəm Həsənov deyib.

Komitə sədrinin iddiasına görə, polis gücünə mətbuatın binaya daxil olmasının qarşısı alınıb. Həmçinin hüquqşünas ləğv prosesində olan digər 21 bankın kreditorlarına müraciət edərək birləşməyə çağırıb:"ƏSF-in rəhbəri Azad Cavadov və Vüqar Abdullayev olanda heç bir məhdudiyyət yox idi. Görünən odur ki, ötən 3 il ərzində ƏSF-in daha da qeyri-şəffaf olmasının səbəbi qanunsuz əməllərinin artmasıdır. Hazırda bütün müflis bankların kreditorlarının qurultayının keçirilməsini də müzakirə edirik. Onların haqqını yeyən bir qurum var - ƏSF. Ona qarşı və haqlarının təmin olunması üçün kreditorlar birləşməlidir!

Məsələ ilə bağlı DİN-in mətbuat xidmətindən bildirilib ki, polis əməkdaşları tərəfindən tədbirə hər hansı müdaxilə edilməyib, hüquqazidd hal baş verməyib.

İddia ilə əlaqədar Əmanətlərin Sığortalanması Fondu (ADİF) ilə də əlaqə saxladıq. Qurumdan bununla bağlı rəsmi açıqlama yayacaqlarını bildirdilər.

Qeyd edək ki, hazırda Əmanətlərin Sığortalanması Fondunun (ADİF) İcraçı direktoru Tural Piriyevdir.



# Mina təhlükəsinə dair növbəti təlim keçirildi

***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) dəstəyi ilə Bərdə rayonunun Həsənqaya kəndində 866 mənzilli məcburi köçkün qəsəbəsində mina təhlükəsi mövzusunda maarifləndirici qapı-qapı sessiyaları keçirilib.***

"Unikal" xəbər verir ki, sessiyaların keçirilməsində məqsəd işğaldan azad edilmiş ərazilərdə aşkarlana biləcək minalar və digər partlamamış hərbi sursatlar, onlarla davranış qaydaları, təhlükəsizlik tədbirləri, bununla əlaqədar müraciət olunacaq aidiyyəti dövlət qurumları barədə sakinləri məlumatlandırmaqdır.

İki gün davam edən təlimlərdə 21 nəfər təlimçi iştirak edib ki, onlardan üçü mina partlayışından zərər görmüş şəxslərdir. Təlim zamanı ümumilikdə 150-dən çox sakinə maarifləndirici broşürlər paylanılıb, praktiki məşğələlər təşkil edilib.

Qeyd edək ki, Dövlət Komitəsi mina təhlükəsinə dair maarifləndirici təlimlərin işğaldan azad edilmiş ərazilərə geri qayıdacaq sakinlər arasında mütəmadi təşkilini nəzərdə tutub.

# Türkiyə səfiri İlham Əliyev və Mehriban Əliyevaya təşəkkür etdi

***"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin onların tapşırığı ilə Türkiyəyə yardımları toplayıb göndərən şəxslərə təşəkkür edirəm".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə Türkiyəyə humanitar yardımın yolasalma mərasimində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycan həmişə olduğu kimi, bu dəfə də Türkiyəyə qardaş əlini uzadıb: "Türkiyədəki qardaşlarım qarın altında üşüdüyü halda mən isti evimdə otura bilmərəm" deyərək öz yorğan-döşəyini göndərən qardaş və bacılarımıza təşəkkür edirəm. Biz Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə bu problemin də öhdəsindən gələcəyik. Türkiyə xalqı Azərbaycanın dar gündəki dostluğunu heç vaxt unutmayacaq. Allah heç zaman bizlərə belə acı yaşatmasın".

# İcra başçısı onu özünə müavin təyin etdi

***Goranboy Rayon İcra Hakimiyyətində yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, icra başçısı Məhərrəm Quliyevin əmri ilə Həsənov Şamxal Məhərrəm oğlu Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsinə təyin edilib.

Qeyd edək ki, o bu təyinatadək Goranboy rayon İcra Hakimiyyəti Başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini olub.



## Bu tarixlərdə “Kənddən Şəhərə” yarmarkaları təşkil olunacaq

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 18-19 fevral tarixlərində “Kənddən Şəhərə” həftəsonu yarmarkaları keçiriləcək.***

”Unikal” xəbər verir ki, yarmarkaların təşkil olunmasında əsas məqsəd yerli fermerlər üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Həftəsonu yarmarkalarında 56 regiondan 70-dən çox fermer iştirak edəcək. Fermerlər 80-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkalarda tamamilə ödənişsiz şəkildə iştirak edəcəklər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunacaqlar. Həmçinin, məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstəriləcək məhsulları təsərrüfatlarından birbaşa yarmarka keçiriləcək ünvanlara qədər daşınacaq.

“Kənddən Şəhərə” həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda keçiriləcək:

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının yanı)

Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi, 5B (“İnqilab” kinoteatrının yanı)

## Beynəlxalq axtarışa verilən şəxs Rusiyadan Azərbaycana ekstradisiya edildi

***“Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında” 22.01.1993-cü il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Baş Prokurorluğunun ekstradisiya haqqında vəsatəti Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.***



”Unikal” xəbər verir ki, Azərbaycan Respublikasının vətəndaşı Rəşad Xanmuradovun Qusar rayon polis şöbəsinin icraatında olan cinayət işi üzrə bir qrup halında xuliqanlıq əməlini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən barəsində həbs qətimkan tədbiri seçilməklə axtarış elan olunub.

Rəşad Xanmuradov Rusiya Federasiyası ərazisində saxlanılaraq cari ilin fevralın 15-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə gətirilib.

# Məmurların saxta şirkət oyununun tükürpədici pərdəarxası

### Fəhlənin, gözətçinin, cənazə sürücüsünün... adına çox sayda şirkətləri və külli miqdarda vergi borclarını kimlər, necə yaradırlar? - Şok təfərrüatlar!



***Bu günlərdə məlum olub ki, fəhləliklə məşğul olan Hacıqabul rayon sakini Söyüdbala Cəfərovun özünün xəbəri olmadan adına 5 şirkət yaradılıb. Beləliklə, həmin şəxsin dövlət büdcəsinə ümumilikdə 1 milyon 451 min 117 manat vergi borcu yaranıb! Bununla bağlı dövlət qurumunun rəsmi məktubu da var. Hazırda onkoloji xəstə olan Söyüdbala Cəfərov ”Xəzər” telekanalına deyib ki, onun adına 5 şirkət açılıb və bu şirkətlərin fəaliyyətindən dövlətə külli miqdarda borcu yaranıb. Əlavə edib ki, Bakıda müxtəlif yerlərdə fəhlə kimi çalışıb. 2017-ci ildə isə ona Vergilər Nazirliyindən məktub gəlib. Məktubda adına 5 şirkətin olduğu və bir milyon manatdan artıq borcunun yarandığı qeyd edilib.***

Söyüdbala Cəfərov əlavə edib ki, hətta məsələ ilə bağlı Vergilər Nazirliyinin müvafiq qurumlarında da olub. Amma xeyri olmayıb. Məsələyə məhkəmə müstəvisində də baxılıb və Söyüdbala Cəfərovun ölkədən çıxışına qadağa qoyulub.

”Unikal”ın araşdırmasına görə, S.Cəfərov oxşar situasiya ilə üzləşən ilk vətəndaş deyil. Məsələn, üç il əvvəl Quba rayonunun Nüqədi kəndinin sakinləri - Elxan və Nail Babayev qardaşlarının nə az, nə çox, düz 81 milyon manat vergi borcunun olduğu barədə məlumat yayıldı. Ayda 200 manata gözətçi işləyən Elxan Babayev və ümumiyyətlə işsiz olan Nail Babayev bu barədə məlumat alanda şok keçiriblər, Sonradan məlum olub ki, vaxtilə onlardan şəxsiyyət vəsiqələrini işə düzəltmək adı ilə alan şəxslər qardaşların adına şirkət açıb əməliyyatlar aparıb, amma vergisini ödəməyiblər.

Müəssisələrin “sahibləri” hansısa şirkətin “rəhbəri” olduğunu isə yalnız iş- işdən keçəndən - şirkətin böyük borcları yarandıqda və haqlarında cinayət işi qaldırılanda xəbər tuturlar.

Bəzən bu hal faciə ilə nəticələnir. Bu ilin fevralın 15-də Astara rayonunun Toradi kənd sakini Zaur Sovqatovun Taxtanakəran kəndində yolun kənarındakı vələs ağacından asılmış vəziyyətdə meyiti aşkar edilib. Məlum olub ki, onun Rövşən Hüseynov adlı tanışı Zaur Sovqatovun şəxsiyyət vəsiqəsindən istifadə edərək onun adına çoxsaylı şirkətlər açıb.

Zaur Sovqatov beş şirkətin təsisçisi və rəhbəri olduğunu məhkəmə vasitəsi ilə öyrəndikdən sonra Rövşən Hüseynovdan bu borcun necə yarandığını soruşub. Rövşən Hüseynov bu məsələni qısa zamanda həll edəcəyini bildirsə də, sonradan onunla əlaqə saxlamaq mümkün olmayıb. Gözləmədiyi məbləğdə vergi borcunun olduğunu bilən Zaur Sovqatov intihar etməkdən başqa yol görməyib.

Təcrübə göstərir ki, oxşar problemlərlə üzləşənlərin bir çoxu hansısa formada şəxsiyyət vəsiqələrinin başqa şəxslərin əlinə düşdüyünü bildirirlər. Nəticədə bu sənəd əsasında sahibin özünün xəbəri olmadan onların adına müəssisə yaradılır.

İkinci yol isə problemin elə həmin vətəndaşın öz iştirakı ilə ortaya çıxmasıdır. Bununla bağlı vergi sahəsi üzrə vəkil Sirac Piriyev ötən il ”fed.az”a bildirib ki, şəxsdən notariusda bütün səlahiyyətlərinin icrası üçün etibarnamə alınır. Bu etibarnamə ilə onun adından MMC yaratmaq, təsis qərarını imzalamaq, nizamnamə təsdiq etmək, vergi orqanına ərizə təqdim etmək mümkündür. Etibarnamə ilə həm ərizəni imzalayır və sənədləri vergi orqanına təqdim etməklə müəssisəni təsis eləyirlər. Daha çox yayılmış variant budur. Bir az da konkretləşdirsək, müəyyən şəxslər əsasən aztəminatlı şəxsləri müxtəlif yollarla tapırlar və onlara xırda məbləğlər vəd edərək bu işə cəlb edirlər. Sonra da bu sənədləri şəxsdən əldə edib onun adından sistemə daxil olunur, qeydiyyat aparılır. Ardınca da möhür sifariş edilir, biznes sertifikatı, bank, gömrük və digər əməliyyatların aparılması məqsədilə şəxs notariusa aparılır, şirkətin adından başqa birinə etibarnamə verməsi istənilir. Çox vaxt həmin etibarnamə verilən şəxs də formal olur və müəyyən məbləğ qarşılığında xidmət edir. Təqdim edilən həmin notarial etibarnamə ilə sonrakı bütün prosesləri, hətta bank hesabının açılması, pulun çıxarılması, gömrük rəsmiləşdirilməsi və digər qurumlardakı ayrı-ayrı əməliyyatları aparmaq mümkün olur. Şirkətin formal sahibi ilə real sahibləri arasında sonrakı əlaqələr də müxtəlifdir. Əvvəla, formal şirkət sahibləri işin real sahiblərini çox vaxt tanımırlar. Çünki arada bir neçə şəxs olur və işləri onlar aparırlar. İkincisi, adına şirkət yaradılan şəxsə ya aylıq ödəniş edilir, ya da birdəfəlik müəyyən qədər pul verilir. S.Piriyevin sözlərinə görə, bu o hallarda olur ki, həmin şəxslər adlarına şirkət açıldığını bilsələr də, aparılan qanunsuz əməliyyatlardan və gələcəkdə onları hansı problemlərin gözlədiyindən tamamilə məlumatsızdırlar. Ta ovaxtadək ki, günlərin birində bu adamların evinə Kommersiya Məhkəmələrinin birindən vergi borcunun olması (çox vaxt iri məbləğdə) və ölkədən çıxışına məhdudiyyət qoyulması məsələsinə baxılması barədə bildiriş gəlir...

”Unikal”ın araşdırmasına görə, məlum təcrübədən müxtəlif məmurlar və onlara yaxın şəxslərin istifadə edilməsi geniş yayılıb. Məsələn, Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə məhkəmə prosesində Respublika Əlillərin bərpa Mərkəzinin baş mühasibi olmuş Nəzakət Kərimova demişdi ki, qızının adına bir neçə şirkət yaradılıb və alqı-satqılar üçün ayrılan pulların 20-30 faizi geri qaytarılıb. Əlavə gəlirlər isə bərpa mərkəzinin rəhbərinə verilib: ”Mən bərpa mərkəzinin rəhbəri İlqar Qurbanovun tapşırıqlarını icra etmişəm. Ancaq tapşırıqlar əsasında olan işlər görülüb, başqa əlavə əməliyyatlar aparılmayıb”.

Ən maraqlısı isə başqa bir şahidin dedikləri idi: cənazə avtomobilinin sürücüsü işləyən həmin şahid məhkəmədə demişdi ki, Respublika Əlillərin Bərpa Mərkəzi üçün avadanlıqların alınmasına görə saxta şirkətlərdən 3-çü onun adına təsis edilib. Sitat: ”Mənim dostum Vüqar xahiş etdi ki, sənin adına şirkət açaq mən də razı oldum. Heç bir xeyirim olmayıb, nə şirkəti olduğunu da bilməmişəm”.

Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır. Bircə onu demək lazımdır ki, fəhlənin, gözətçinin, cənazə sürücüsünün... adına çox sayda şirkətləri və külli miqdarda vergi borclarını yaradanlarla bağlı aidiyyatı qurumların yoxlamaları dərinləşdirməsinə ehtiyac var. Belədə əsl günahkar və ya günahkarlar da ortaya çıxardı...

***Sənan Mirzə***

## 5.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;

# Media reyestri nəyə xidmət edəcək?

## Müşfiq Ələsgərli: "Azərbaycanda öz işini qanunlar çərçivəsində quran və peşəkar jurnalistika fəaliyyəti ilə məşğul olan media təsisatları media reyestrinin tətbiqinə razıdır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Bir müddətdir ki, media təsisatlarının reyestrdən keçməsi məsələsi müzakirə olunur. Bəziləri bunu fikir, söz azadlığına maneə kimi qiymətləndirsə də, media ekspertləri media reyestrinin peşəkar medianın formalaşmasına xidmət edəcəyi qənaətindədir.***

Bəs görəsən media reyestri fikir, söz azadlığına, plüarizmin inkişafına necə təsir göstərəcək?



Jurnalistlərin Həmkarlar İttifaqının (JuHİ) sədri Müşfiq Ələsgərli "Unikal" qəzetinə açıqlamasında bildirib ki, "Media Haqqında" yeni qanunun və media reyestrinin tətbiq olunmasının bir deyil, bir neçə səbəbləri var. İlk səbəb ölkədə media uçotunun aparılmasıdır. Digər səbəb kimi media sahəsində şəffaflığın və səliqə-sahmanın yaradılmasını vurğulamaq olar. Media reyestri tətbiq olunursa, ölkədə peşəkar medianın çərçivəsi cızılır. Öz işini qanunvericilik əsasında qurmuş KİV-lər müəyyənləşir, eyni zamanda mediadan neqativ məqsədlə istifadə edənlərin kimliyi üzə çıxır. Kimlər ki, öz işini Media Haqqında qanuna uyğun qururlar, onlar üçün heç bir problem yoxdur. Amma kimlər ki, işini qanunvericiliyə uyğun qurmur, onlar üçün problemlər ortaya çıxır. Bu neqativ halların üstünün açılmasını istəməyənlər media reyestrinin tətbiqinə qarşı kampaniya aparırlar. Buna bir neçə misal çəkmək olar. Bu yaxınlarda bəzi jurnalist həmkarlarımızın reyestrdən keçməsi üçün problemlər yarandı. Bəlli oldu ki, bu şəxslər uzun illər media sahəsində fəaliyyət göstərsələr də, onların əmək hüquqları rəsmiləşdirilməyib, çalışdıqları redaksiyalarda onlarla əmək müqaviləsi bağlanılmayıb. Çünki həmin redaksiyalar əmək hüquqlarının yaranmasını istəmirlər. Bu cür neqativ işlə məşğul olanlar media reyestrinin tətbiq olunmasını istəmirlər. Onlar buna qarşı kampaniya aparırlar".

M.Ələsgərli burada bir sıra xarici amillərin də olduğunu bildirib. Deyib ki, ölkəmizin demokratik imicinə zərbə vurmaq istəyən güc mərkəzləri var. Həmin mərkəzlər də media sahəsində səliqə-sahman yaranmasını istəmirlər. Çünki bu onların Azərbaycanda qondarma media qurumlarından istifadə edərək öz məqsədlərinə xidmət edən təbliğatın aparılmasına əngəl törədir. Beləliklə, "Media haqqında" qanun və media reyestrinin tətbiqi Azərbaycan media işçilərinin maraqlarını ehtiva edir. Azərbaycanda öz işini qanunlar çərçivəsində quran və peşəkar jurnalistika fəaliyyəti ilə məşğul olan media təsisatları media reyestrinin tətbiqinə razıdır. Ümumilikdə media reyestrinin tətbiqi ölkədə KİV- lərin statistikasını müəyyən etməyə imkan yaradacaq və peşəkar media qurumlarının, jurnalistlərin hüquqlarını müdafiə etmiş olacaq. Bu həmçinin dövlətin media üçün inkişaf proqramlarının həyata keçirməsini də asanlaşdıracaq. Kimlər ki, bu mühitin qorunmasını istəmir, onlar media reyestrinə qarşı çıxırlar. Qanuna əməl edən heç bir KİV qurumu reyestrdən kənar qalmır" .

Müsahibimiz onu da qeyd edib ki, "Media haqqında" qanunun və media reyestrinin tətbiqinin ölkəmizdə peşəkar, demokratik və azad medianın inkişafına uyğundur.

Bakıvaxtı.az xəbər portalının baş redaktoru Qalib İbrahimoğlu bizimlə söhbətində deyib ki, bəzilərinin düşündüyü kimi, Media Reyestrində jurnalistlərin qeydiyyatı məcburi deyil, hər kəs orada olub-olmamaqla bağlı qərarı özü verəcək. Yəni, Media Reyestrində həm media subyektləri, həm də könüllülük əsasında jurnalistlər qeydiyyata alına bilərlər. Onun fikrincə, Media Reyestri media sahəsində sistemli yanaşmanın tətbiqini məqsəd kimi qarşıya qoyur: "Media Reyestrinin məqsədi media subyektlərinin sayının müəyyənləşdirilməsi, bununla da media subyektlərinin və onların işçilərinin hüquqlarının müdafiəsi mexanizminin formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin edilməsi, bu sahədə fəaliyyətin stimullaşdırılmasıdır. Haqlı olaraq hər birimiz "Media Reyestri jurnalistlərə nə verəcək" sualına cavab axtarırıq. Bu reyestrə daxil olacaq jurnalistlərə vəsiqələrin verilməsi, onlar üçün müəyyən imtiyazların müəyyən edilməsi media sahəsindəki çatışmazlıqları, problemləri daha tez aradan qaldırmağa kömək edəcək. Reyestrdən keçən mətbuat orqanları üçün gələcəkdə həm reklam bazarında, həm də digər məsələlərdə müsbət istiqamətlər açılacaq. Reyestrdən keçən mətbuat orqanlarının jurnalist əməkdaşları da reyestrdən keçəcək. Məlumdur ki, dövlət başçısı güzəştli ipoteka haqqında sərəncam imzalayıb və reyestrə adı düşən mətbuat orqanları, jurnalistlər güzəştli ipotekanın şərtlərindən də istifadə edə bilər. Bu isə jurnalistlərin sosial problemlərinin həllində də öz köməyini göstərəcək. Bir sözlə, Media Reyestrinin fəaliyyətə başlaması media sahəsində şəffaflığın təmin olunmasına şərait yaradacaq. Bəlli olduğu kimi, MEDİA tərəfindən onlayn media subyektlərinə dəstək layihəsi çərçivəsində maliyyə vəsaiti ayrılır. MEDİA-nın tələblərindən biri də həmin saytların gündəlik 20 özəl material tələbidir. Qeyd edim ki, 20 özəl material tələbini yerinə yetirmək jurnalistlər üçün gündəlik iş normasına çevrilib. Bu tələb əksər saytların "copy-paste" hallarının qarşısına sədd çəkir. Artıq mətbuat nümayəndələri başqa agentlik və saytlardan xəbərləri "copy-paste" etməkdənsə, özəl yazılara üstünlük verirlər. Bunun özü isə jurnalistlərin peşəkarlığına kömək edir. Yəni, jurnalistin fikri kimdənsə, belə deyək, yazı oğurlamağa yox, özünün yeni mövzular axtarışına çıxmasına təkan verir. Belə olanda isə jurnalist ekspertlərlə ünsiyyət yaradır, yeni bilgilər əldə edir, yazı yazmaq qabiliyyətini formalaşdırır".

Xatırladaq ki, keçən ilin oktyabr ayından Media Reyestri fəaliyyətə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Media haqqında" Qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Fərmanına əsasən, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi də daxil olmaqla, aidiyyəti qurumların üzərinə Media Reyestrinin yaradılması və onun fəaliyyətinin təmin olunması istiqamətində müvafiq tapşırıqlar qoyulub.Nazirlər Kabinetinin müvafiq qərarları ilə Media Reyestri şəhadətnaməsi və jurnalist vəsiqəsinin forması, həmçinin jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası təsdiq edilmiş, bununla da Media Reyestrinin hüquqi təminatının yaradılması istiqamətində verilmiş tapşırıqların icrası yekunlaşıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Aztelekom" yeni rəqəmsal TV xidmətini təqdim edir

***İndi "Aztelekom" və "Baktelecom"un fiber-optik internet xidməti (GPON-Gigabit Passive Optical Networks) üzərindən təmin olunan yeni TV xidməti - Tvin TV-ni əldə edən abunəçi ümumi 247 TV kanalından 57-ni HD yayım keyfiyyətində izləmək imkanı əldə edəcək.***

"Unikal" xəbər verir ki, Tvin TV-nin heç bir yaddaş kartı olmadan verilişlərin 7 günlük arxivini izləmək və "YouTube", "Netflix" kimi tətbiqlərdən istifadə etmək kimi üstünlükləri var.

Qeyd etmək lazımdır ki, Tvin TV həm adi TV, həm də Smart TV funksiyalarına malikdir.

"Aztelekom" Tvin TV-ni əldə etmək istəyən abunəçilərinə 3-ü 1-də paketini 27 AZN-ə, "Baktelecom" isə 29 AZN-ə təqdim edir. Bu paketə telefoniya, 30 mbit/s GPON texnologiyalı internet və TV xidmətləri daxildir.

4K keyfiyyəti özündə ehtiva edən xidmətin digər üstünlükləri aşağıdakı kimidir:

Rahatlıq:

-24/7 dəstək

-valideyn nəzarəti funksionallığı

-asan istifadə

-kabellərə və antenlərə ehtiyac yoxdur

Sərfəli:

-12 aylıq güzəştli şərtlərlə pulsuz cihaz və qoşulma

-Smart TV-yə xərclənən vəsaitə qənaət

-3 xidmət birlikdə daha əlçatan

Məlumat üçün bildirək ki, rəqəmsal TV xidmətinə yalnız "Aztelekom" və "Baktelecom"un GPON xidməti olan ünvanlardakı abunəçilər qoşula bilərlər.

Bu paket daxilində 30 mbit/s internet təklif edilsə də, abunəçilər seçim əsasında daha yüksəksürətli fiber-optik internet xidmətləri də əldə edə bilərlər. Bu və ya digər xidmətlərə qoşulmaq üçün https://tvintv.az/ saytı vasitəsilə, "TV" sözünü sms ilə 6789 qısa nömrəsinə göndərməklə və ya regional filialların ərazi üzrə xidmət göstərən şöbəsinə (Aztelekom abunəçiləri), Rabitə Xidmətləri Mərkəzlərinə (Baktelecom abunəçiləri) müraciət etmək olar.




## "AzInTelecom"dan Azərbaycanda ilk!

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC xaricdə təhsil alan Azərbaycan vətəndaşlarının ölkəyə geri qayıdışını stimullaşdırmaq və ölkənin qabaqcıl şirkətində aktiv olan vəzifələr üzrə dəyərləndirilməsi məqsədilə təcrübə və təqaüd proqramına start verir.***

Bununla əlaqədar olaraq layihənin ilkin mərhələsində "Azərbaycan-Macarıstan Məzunları" İctimai Birliyi və "AzInTelecom" MMC arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.

Nazirliyin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin də iştirak etdiyi tərəfdaşlıq görüşündə əməkdaşlıq perspektivləri müzakirə olunub.

Layihə çərçivəsində Macarıstanda təhsil alan tələbələrə yay və qış semestr tətilləri zamanı "AzInTelecom" MMC-nin ixtisas sahələri üzrə müvafiq departamentlərində təcrübə keçmələri üçün şərait yaradılması nəzərdə tutulur.

Həmçinin "AzInTelecom" MMC-də olan iş imkanları haqqında ictimai birlik vasitəsilə Macarıstanda təhsil alan və ya məzun olanların birbaşa məlumatlandırılması, daxil olan müraciətlərin dəyərləndirilərək gənclərin işlə təmin edilməsi planlaşdırılır.

Eyni zamanda, "AzInTelecom" MMC yerli şirkət kimi bir ilkə imza ataraq memorandum çərçivəsində Macarıstanda təhsil alan tələbələrin bir neçəsini təhsil aldıqları müddət ərzində təqaüdlə təmin edəcək. Təqaüd veriləcək tələbələr əvvəlcədən müəyyən edilmiş kriterilər əsasında müsabiqə yolu ilə seçiləcək.

"AzInTelecom" MMC oxşar proqramların icrasını digər ölkələrdə təhsil alan Azərbaycan vətəndaşları ilə bağlı da davam etdirəcək.

Qeyd edək ki, "AzInTelecom" MMC ölkə daxilində təhsil alan tələbələrin və məzunların karyera inkişafına dəstək olmaq məqsədilə mütəmadi olaraq ödənişli təcrübə proqramları həyata keçirir. 2022-ci ildə elan edilən proqrama 2000-dən çox gənc müraciət edib. Onlardan 46 nəfər şirkətdə təcrübə keçmək şansı qazanıb. Proqramın sonunda öz aktivliyi, bilik və bacarıqları ilə seçilən 19 nəfər "AzInTelecom"da işlə təmin edilib. 2021-ci ildə isə təcrübə keçən şəxslər arasında fərqlənən 21 nəfər şirkətin əməkdaşı kimi fəaliyyətini davam etdirib.

# DİM magistraturaya qəbul imtahanı keçirəcək

***Dövlət İmtahan Mərkəzi 19 fevral 2023-cü il tarixində ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı keçirəcək.***



Bu barədə DİM-dən məlumat verilib. Bildirilib ki, magistratura səviyyəsinə qəbul imtahanı respublikanın 7 şəhər və rayonunda - Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 72 binada təşkil olunacaq.

Bakalavrların imtahan verəcəyi yer onun "Şəxsi kabinet"ində qeyd etdiyi faktiki yaşadığı məntəqəyə uyğun müəyyən olunur.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Bildiyiniz kimi, imtahanda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanacaq. Mətnin səsləndirilməsinə hazırlıq və binada sakitliyin təmin olunması ilə əlaqədar imtahanın başlanmasına 15 dəqiqə qalmış hər kəs zalda olmalıdır.

İmtahanın müddəti 3 saatdır. İmtahan başa çatdıqda və ya iştirakçı tərəfindən yekunlaşdırıldıqda cavab kartı ilə yanaşı, sual kitabçası da nəzarətçiyə təhvil verilir.

İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

Məlumat üçün qeyd edək ki, ərizələrin qəbulu internet vasitəsilə yanvarın 24?dən fevralın 9-dək aparılıb. İmtahanda iştirak etmək üçün 18724 bakalavr ərizə təqdim edib. Onlardan 17190 nəfəri Azərbaycan bölməsi, 1534 nəfəri rus bölməsi üzrə imtahan verəcək. Bakalavrlardan 12292-si cari ilin, 6432-si isə əvvəlki illərin məzunlarıdır, 49 nəfər xarici ölkə vətəndaşıdır.

Qəbul imtahanı Bakıda 51, Sumqayıtda 5, Abşeronda 3, Gəncədə 6, Naxçıvanda 2, Mingəçevirdə 3, Lənkəranda 2 binada təşkil olunacaq. Bakıda 13635, Naxçıvanda 501, Gəncədə 1528, Sumqayıtda 1344, Abşeronda 745, Mingəçevirdə 565, Lənkəranda 406 bakalavrın imtahan verəcəyi gözlənilir. İmtahanın idarə olunmasına 72 ümumi rəhbər, 202 imtahan rəhbəri, 1684 nəzarətçi-müəllim, 169 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunacaq.

Ərizə vermiş bakalavrlar imtahanda iştirak etmək üçün fevralın 13-dən etibarən DİM-in internet saytına daxil olub "Şəxsi kabinet"in istifadəçi adı və parolundan istifadə etməklə "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Burada iştirakçının imtahan verəcəyi şəhər, bina və digər məlumatlar qeyd olunur.

Bakalavrlar imtahana gələrkən aşağıda göstərilən sənədləri mütləq özləri ilə gətirməlidirlər:

- Şəxsiyyəti təsdiqləyən sənədin əslini;
- "İmtahana buraxılış vərəqəsi"ni.

Göstərilən sənədləri arasında uyğunsuzluq aşkarlanan, yaxud həmin sənədlərdən biri olmayan şəxslər imtahana buraxılmayacaq.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri və mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binaları yoxlanılır, zallarda bakalavrların rahat imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə fevralın 18-də imtahan mərkəzləri, zallar, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

# "Ali təhsil haqqında" qanunu gecikdirən Milli Məclis deyil - Deputatdan nazirə cavab

***Milli Məclisin 2023-cü il yaz sessiyasının qanunvericilik işləri planına "Ali təhsil haqqında" qanun layihəsi daxil edilib. Sözügedən qanun layihəsi artıq 3-cü sessiyadır ki, işlər planına salınsa da, hələ ki qəbul edilməyib.***

Qəbulu ən çox gecikən layihələrdən biri olan "Ali təhsil haqqında" sənəd Milli Məclisin Elm və təhsil komitəsində dəfələrlə müzakirə edilib, amma plenar iclasda müzakirəsi indiyə qədər mümkün olmayıb.

Elm və təhsil naziri Emin Əmrullayev bu yaxınlarda jurnalistlərə açıqlamasında bildirib ki, "Ali təhsil haqqında" qanunun qəbulunda maraqlıdırlar: "Qanunu Milli Məclis qəbul edir, nazirlik qanunları icra edən qurumdur. Biz qanunları icra edən qurum olduğumuza görə, qanun yaratmaq funksiyamız yoxdur".

Bəs qanunun qəbulunu gecikdirən nüanslar hansılardır?

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov Modern.az-a bildirib ki, "Ali təhsil haqqında" qanun layihəsi parlamentdə dəfələrlə müzakirə olunub: "Bununla bağlı müzakirələrdə səlahiyyətli şəxslər də iştirak ediblər. Qanun layihəsinin müzakirəsini və qəbulunu gecikdirən tərəf Milli Məclis deyil. Milli Məclis sənədin qəbulu üçün gərəkən bütün işləri görüb. Bəli, qanunları Milli Məclis qəbul edir, amma bununla bağlı ayrı-ayrı qurumların da rəyləri nəzərə alınır. Ona görə də qanunun qəbulunu uzadan tərəf qanunverci orqan deyil. "Ali təhsil haqqında" qanun layihəsi Milli Məclis tərəfindən hazırlanıb və bir neçə dəfə iclaslarda müzakirəyə çıxarılıb, müvafiq qurumların, universitetlərin, təşkilatların da rəyləri alınıb. Qanun layihəsi tam hazır vəziyyətdədir və artıq plenar iclaslarda müzakirəyə çıxarıla bilər".

Parlamentari vurğulayıb ki, sözügedən qanunun qəbulunun gecikməsində məsuliyyət aidiyyəti qurumların üzərinə düşür. "Ali təhsil haqqında" qanun layihəsinin qəbul edilməsində Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası(AMEA) maraqlı olmalıdır. Prosesin sürətlənməsi üçün onlar da səylərini artırmalıdırlar. Bir daha qeyd edirəm ki, Milli Məclis tərəfindən qanunun qəbul olunması üçün heç bir problem yoxdur".

Deputat, həmçinin qanunda nəzərdə



tutulan yenilikləri də açıqlayıb. Bildirib ki, qanun layihəsində vacib məsələlər yer alıb: ""Ali təhsil haqqında" qanun layihəsində universitetlərin idarə olunması, distant təhsil, tələbə yataqxanaları, ikili diplomlar, diplomların tanınması, doktorantura səviyyəsinin iki yox, birmərhələli olması, tələbələrin köçürülməsi barədə yeni qaydalar və digər yeniliklər var. Qanunun qəbulu isə təhsilimizin inkişafına, güclənməsinə töhfə verəcək".

# Rayonlarda suvarma mövsümünə hazırlıq işləri görülür



***Tərtərdə növbəti suvarma mövsümünə ciddi hazırlıq işləri görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Tərtər rayonunda əkin sahələrinin növbəti suvarma mövsümündə su ilə təminatının yaxşılaşdırılması üçün Tərtər Suvarma Sitemləri İdarəsi tərəfindən hazırlıq işləri davam edir.***

Su itkisinin qarşısının alınması üçün arxların lildən və kol-kosdan təmizlənməsi, o cümlədən torpaq məcralı kanalların beton üzlüyə alınması da görülən işlərdən biridir. Əkin sahələrinin suvarılmasına 627 km-ə yaxın təsərrüfatlar daxili və təsərrüfatlar arası arxlar xidmət göstərir. Ötən il 397 min kub metr ekskvatorlarla, 116 min kub metr isə buldozerlərlə lildən və kol-kosdan təmizləmə işləri aparılıb.

Suvarma mövsümündə Tərtər çayında su davamlı olmadığına və fasilələrlə verildiyinə görə, əsas güc subartezian quyularının üzərinə düşüb. Ötən il su mənbələrindən 254791 min kub metr su götürüləræk 156028 hektar sahəyə 199767 min kub metr su verilib.

Qeyd edək ki, Tərtər Suvarma Sistemləri İdarəsi 29133 hektar əkin sahəsinin suvarılmasına xidmət edir. Əkin sahələri Tərtər çay, İncə çay, subartezian quyuları və Yuxarı Qarabağ kanalı üzərində quraşdırılmış Bəyimsarov nasos stansiyası vasitəsi ilə suvarılır.

Yevlaxda yeni beton kanal çəkilir. Dilqəm Şərifov bildirib ki, Yevlax rayonunda meliorativ tədbirlər uğurla davam edir. Görülən işlər nəticəsində hər il rayon ərazisində əkilən kənd təsərrüfatı bitkilərinin suvarılması yaxşılaşdırılır. Yevlax Suvarma Sistemləri idarəsi Yevlax rayonunun 42400 hektara yaxın əkin sahəsini suvarma suyu ilə təmin edir. Əkin sahələri 2 üsulla, mexaniki və özü axımı ilə suvarılır. Öz axımı ilə 29496 hektar, mexaniki üsulla isə 12901 hektar. Mexaniki üsulla suvarma 41 ədəd nasos stansiya vasitəsilə həyata keçirilir. İdarənin əsaslı təmir hesabına Aran, Aran-2 və Malbinəsi nasos stansiyalarında elektrik avadanlıqları yenilənib, torpaq məcralı Qum kanalında 1 km, Salahlı beton kanalında 0,5 km hissəsində üzərindəki qurğularla birlikdə əsalı təmir olunaraq istifadəyə verilib. Görülmüş işlər nəticəsində su itkisinin qarşısı alınıb. Hazırda torpaq məcralı kanala beton üzlük çəkilir.

Əkin sahələrini mütəşəkkil, vaxtında və normasında suvarma suyu ilə təmin etmək məqsədilə ötən il ərzində bir sıra işlər görülüb. Belə ki, cari təmir işləri hesabına rayonun əksər kəndlərini əhatə edən torpaq məcralı suvarma kanallarında 425 km uzunluğunda, kollektor-drenaj sistemində isə 300 km uzunluğunda lildən təmizləmə işləri yerinə yetirilərək su ötrücülüyü yaxşılaşdırılıb. Ümumilikdə idarənin öz gücünə 1380 min m3 həcmində lildən təmizləmə işləri aparılıb. Bundan başqa rayon ərazisində müxtəlif kəndlərdə yerləşən 38 stasionar nasos stansiyada və 89 subartezian quyularında mexaniki və elektrik avadanlıqlarında yaranmış nasazlıqlar cari təmir hesabına təmir işləri aparılaraq saz vəziyyətə gətirilib.

Qeyd edək ki, Yevlax rayonunda əsas su mənbələri Kür çayı, Əlican çayı, Tərtər çayı, Yuxarı Qarabağ Kanalı, Yuxarı Şirvan Kanalı və subartezian quyularıdır.

***Hüseyn İsgəndərov***

# Quş qripinə qarşı monitorinqlər keçiriləcək

***Respublika ərazisini yüksək patogen quş qripi xəstəliyindən qorumaq məqsədilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən növbəti epizootoloji monitorinqlər keçiriləcək.***



Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bildirilib ki, monitorinqlərin təşkili məqsədilə Agentliyin, Qida Təhlükəsizliyi İnstitutunun, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin, Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin əməkdaşlarından ibarət İşçi qrupu yaradılıb.

2023-cü ilin 20-24 fevral tarixlərində keçiriləcək növbəti epizootoloji monitorinqlər zamanı Biləsuvar, Şabran və Xızı rayonlarındakı Mahmudçala, Ağzıbir və Yaşma ovçuluq təsərrüfatlarını, Abşeron yarımadasında, Salyan, Ağcabədi və Lənkəran rayonlarındakı Abşeron, Şirvan, Ağ Göl, Qızılağac milli parklarınının su-bataqlıq, dənizsahili zonalar və digər ərazilərini əhatə etməklə, əraziylə yanaşı, çöl quşlarına ümumi baxış keçirilməsi, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə çöl quşların ovlanması planlaşdırılır. Eyni zamanda həmin müddətdə Bakı şəhərində, Şabran, Cəlilabad, Ucar, Beyləqan və İmişli rayonlarında fəaliyyət göstərən sənaye əsaslı iri və kiçik quşçuluq müəssisələrində, o cümlədən Bakı şəhərinin, Abşeron, Şabran, Xızı, Ağcabədi, Siyəzən, Salyan, Biləsuvar və Lənkəran rayonlarının ailə təsərrüfatlarındakı ev quşlarından laborator müayinə aparılması üçün diaqnostik nümunələr götürüləcək, habelə ölkə üzrə təsərrüfatlara ümumi baxış keçirilməklə, baytarlıq norma və qaydalarına əməl olunması üçün məqsədyönlü maarifləndirmə-təbliğat tədbirləri həyata keçiriləcək və epizootoloji məlumatlar toplanaraq təhlil ediləcək.

Əlavə olaraq, monitorinqlərin aparıldığı dövr ərzində təbiət ərazilərində, ailə və fermer təsərrüfatlarında quduzluq və xırdabuynuzlu heyvanların taunu xəstəlikləri üzrə müşahidələrin aparılması, xəstə və ya tələf olmuş heyvanlara rast gəlindikdə isə diaqnostik nümunələrin götürülməsi nəzərdə tutulub.



# Vətən sevgisinin müqəddəslik zirvəsi

***Azərbaycan xalqının tarixinə qeyrət, hünər, şərəf kimi yazılan 44 günlük İkinci Qarabağ müharibəsində torpaq uğrunda qan tökən minlərlə qəhrəmanlardan bir də Şəhriyar Vidadi oğlu Həbiblidir.***

O, az yaşında şərəfli bir həyat yolu keçdi. 1993-cü ildə Lənkəran rayonunun Osakücə kəndində təvəllüd tapan bu, Vətən sevdalısı böyük bir xalqın qəhrəmanlıq simvoluna çevrildi. İndi cismən aramızda olması da, adını eşidən hər bir azərbaycanlı qürur hissi keçirdir. Şəhriyar 27 yaşında zaman-zaman örnək olacaq bir tarix yazıb getdi. Onun bizə qoyub-getdiyi Vətən sevgisinə dövlət tərəfindən verilən dəyər "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın, Qubadlının azadlığına görə medalları oldu.

Köksündə Vətən sevgisi, millət eşqi olan Şəhriyar Həbibi kənd məktəbi başa vurub Bakı Dövlət Universitetinin fizika fakültəsinə daxil olur. Və gələcəkdə milləti üçün dəyərli işlər görməkdən ötrü bütün istedadını, var-qüvvəsini oxuyub-öyrənməyə sərf edir. Həm də saf duyğularla həyata baxmağı, insani keyfiyyətləri, vətənpərvərliyi, sədaqəti təhsil aldığı illərdə ona çoxlu dost qazandırır.

Ali təhsildən sonra Şəhriyar ordu sıralarına gedir. Sevgisini tam Vətəninə bağlayır. Və daşına, torpağına qurban dediyi doğma Azərbaycanın keşiyində ayıq-sayıq dayanır, düşmən tapdağında olan Qarabağın azadlığını düşünür. Əsgəri xidməti zamanı 4 gün çəkən, şərəfli salnamə olan Aprel döyüşlərində ordumuzun tərkibində düşmənə qarşı ən qaynar nöqtələrdə vuruşur, onun layiqli cəzasını verir. Lələ təpədə Azərbaycanın qələbə bayrağı ucalananda özünü dünyanın ən xoşbəxt adamı hesab edir, zəfər günümüzü gözləyir.

Şəhriyar qalib əsgər kimi evə qayıdır. "Cənub" RETSİ Lənkəran Enerji Satış Şöbəsində nəzarətçi mühəndis vəzifəsində çalışır. İşinə böyük məhəbbətlə yanaşır, hallığı, ədaləti önəmli meyar hesab edir, insanlara nümunəvi xidmət göstərməklə el içində başı uca gəzir. Erməni dığalardan alacağı öcü də unutmur. Necə ki, Vətən müharibəsi başlanır, Lənkəran elinin sevimli oğlu Şəhriyar Həmidli könüllü orduya yazılır. Qohum-qonşuya:" 30 ildir düşmən müqəddəs Vətən torpaqlarını əsir edib. Qeyrətli oğlanların arzuladığı gün yetişib. Düşmənlə son damla qanadək döyüşüb onlara özümüzü göstərməliyik. Dığaların qabağından qaçmaq bizə yaraşmır. Tezliklə xalqımız zəfər sevincini yaşayacaq",- deyib silaha sarılır.

Vətən, torpaq naminə Şəhriyar min ölümlü yollar keçir. Döyüşdən-döyüşə bərkiyir. Hər qarış torpaq uğrunda mərdliklə vuruşur. Düşmənin həm canlı qüvvəsinə, həm də texnikasına böyük tələfat verir. Cəbrayılın azadlığı uğrunda ağır müharibə meydanından alnıaçıq çıxan Şəhriyarın göstərdiyi igidlik sözün əsl mənasında nümunə olur. Növbəti döyüş yeri Qubadlıda düşmənə qan qusdursa da, özü də şəhidlik zirvəsinə ucalır.

Bütün Azərbaycan xalqı Şəhriyarı qəlbində yaşadır. İllərin səfində bu sevgi daha müqəddəs olacaqdır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ermənistanın eks-müdafiə naziri axtarışa verildi



***Ermənistanın keçmiş müdafiə naziri Vigen Sarkisyan axtarışa verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Baş Prokurorluğu məlumat yayıb. Bildirilir ki, Vigen Sarkisyan vəzifə səlahiyyətlərini aşmaqda ittiham olunur. İrəvanın ümumi yurisdiksiya məhkəməsi bir müddət əvvəl Ermənistan eks-müdafiə naziri Vigen Sarkisyanın həbs olunması ilə bağlı vəsatəti təmin edib.

Hüquq-mühafizə orqanlarının əməkdaşlarının bildirdiyinə görə, 2018-ci ilin yanvar ayında müdafiə idarəsinin balansında olan binada mənzillərin bölüşdürülməsi prosesində o, bilərəkdən açıq-aşkar səlahiyyətindən kənar hərəkətlər edib.

Prokurorluq prosesi aparan orqana Sarkisyanın axtarışa verilməsi ilə bağlı tədbirlər görməyi tapşırıb.

***Gülayə Mecid***

# Paşinyan Münhenə gedəcək



***Ermənistanın Baş naziri Nikol Paşinyan və xanımı Anna Akopyan fevralın 16-19-da Münhenə işgüzar səfər edəcəklər.***

"Unikal" xəbvər verir ki, Paşinyan Münhen Təhlükəsizlik Konfransının rəsmi açılış mərasimində iştirak edəcək.

# Ərdoğan NATO Baş katibi ilə görüşdü



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO Baş katibi Yens Stoltenberqi qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Prezidentinin Administrasiyası məlumat yayıb.

# Tacikistanda qar uçqunu nəticəsində ölənlərin sayı 15-ə çatıb



***Tacikistanın şərqində baş verən qar uçqunu nəticəsində ölənlərin sayı 15 nəfərə çatıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, 12 nəfər xəsarət alıb. Məlumata görə, hadisə nəticəsində 4 yaşayış binası tamamilə, 35-i isə qismən dağılıb, daha 5 təsərrüfat obyektinə ziyan dəyib.

Hazırda dəymiş zərərin məbləği hesablanır.

# Jirinovskinin oğlu polisə hücum etdi



***Rusiyalı mərhum siyasətçi Vladimir Jirinovskinin oğlu Oleq Eydelşteyn polisə hücum edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV-ləri məlumat yayıb. Bildirilir ki, o Moskvada restoranların birində polislə əlbəyaxa dava edib. Hadisədən sonra Oleq saxlanılıb.

Jirinovskinin oğlu şöbəyə aparılıb. Polisin məlumatına görə, orada da Oleq polis leytenantına bir neçə yumruq vurub, nəticədə məmurun sağ körpücük sümüyü nahiyəsində qançır əmələ gəlib.

Hazırda Oleq inzibati məsuliyyətə cəlb edilib.

# Ermənistanda qarşıdurma - Vətəndaşlar nazirliyin əvvəlki binasını zəbt edib

***Ermənistan müdafiə nazirliyinin keçmiş binasını qanunsuz şəkildə zəbt edərək orada məskunlaşan erməni ailələrlə polislər arasında qarşıdurma yaşanıb.***

"Unikal" erməni KİV-lərinə istinadən xəbər verir ki, hazırda nazirliyin köhnə binasında sakinlərin ərazidən çıxarılması istiqamətində əməliyyatlar aparılır.



Vətəndaşlar onlara əvvəlcədən heç kimin xəbərdarlıq etmədiyini iddia edərək polisə qarşı müqavimət gösrətib.

Qeyd olunub ki, 2022-ci ilin mayında hökumət binanı Ermənistan Dövlət Gəlirləri Komitəsinin balansına verib. 2022-ci ilin sentyabrından tədricən binada ailələr peyda olub.

Məlumata görə, hazırda binada 150-200 ailə yaşayır.

***Ağarza Elçinoğlu***

# ABŞ Ukraynaya büdcə dəstəyi üçün 9,9 milyard dollar ayıracaq

***ABŞ hakimiyyəti yaxın aylarda Ukraynanın büdcəsini dəstəkləmək üçün daha 9,9 milyard dollara yaxın vəsait ayırmaq niyyətindədir.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Departamentinin Digər Dövlətlərə Yardım İdarəsinin direktoru Dafne Rend deyib.

Onun sözlərinə görə, indiyədək ABŞ bu məqsədlər üçün 13 milyard dollar ayırıb: "Konqreslə işləyərək, qarşıdakı aylarda daha 9,9 milyard dollar ayırmağı planlaşdırırıq".



# İsrailin XİN rəhbəri Kiyevdə Zelenski ilə görüşəcək

***İsrailin xarici işlər naziri Eli Koen Kiyevə rəsmi səfər edib.***

"Unikal" "The Jerusalem Post"a istinadən xəbər verir ki, nazirin Ukrayna prezidenti Volodimir Zelenski, ukraynalı həmkarı Dmitri Kuleba və yəhudi icmasının üzvləri ilə görüşü gözlənilir. Bundan əlavə, Koen



Buça və Babi Yarı ziyarət edəcək. Həmçinin o, Ukraynada müharibə başlanandan sonra fəaliyyəti müvəqqəti dayandırılan İsrailin Kiyevdəki səfirliyi qarşısında bayraq qaldırma mərasimində iştirak edəcək. Bundan sonra səfirlik fəaliyyətini bərpa edəcək.

***Ağarza Elçinoğlu***

# "Bunu utancverici hərəkət sayıram" - Stoltenberq

***"Mən müqəddəs bir kitabın yandırılmasını utancverici hərəkət sayıram".***

"Unikal" xəbər verir ki, bunu Türkiyədə səfərdə olan NATO Baş katibi Yens Stoltenberq Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə birgə mətbuat konfransında deyib.

"Quranın yandırılmasının Türkiyədə çox ciddi reaksiyalara səbəb olması barədə məlumatım var. Və bu reaksiyaları anlayışla qarşılaşıram. Mən şəxsən belə bir müqəddəs kitabın yandırılmasını utancverici əməl sayıram. Türkiyədəki və dünyadakı müsəlmanların hiddətini başa düşürəm və bu səbəbdən də bu addımı qınayıram. İsveçrə hökuməti bu və bu kimi əməllərin qarşısını almalıdır".



# Putin və Lukaşenko görüşəcək

***Belarus prezidenti Aleksandr Lukaşenko fevralın 17-də rusiyalı həmkarı Vladimir Putinlə görüşəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Belarus liderı jurnalistlərə bildirib.

Fevralın 14-də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Vladimir Putinlə Belarus prezidenti Aleksandr Lukaşenko arasında görüşün fevralın 17-də baş tuta biləcəyini etiraf edib. Görüşün təfərrüatları barədə məlumat verilməyib.

***Ağarza Elçinoğlu***



# "Qaltye getsin, Zidan gəlsin"



***PSJ rəhbərliyi baş məşqçi Kristof Qaltyenin son nəticələrindən narazıdır.***

Qol.az xəbər verir ki, bu barədə ”Le Parisien” məlumat yayıb. Parislilər bir həftə ərzində ardıcıl 3 məğlubiyyət alıblar. Onlar Fransa Kubokunun 1/8 finalında ”Marsel”ə (1:2), Liqa 1-də ”Monako”ya (1:3) və Çempionlar Liqasının 1/8 finalının ilk matçında ”Bavariya”ya (0:1) uduzublar. Bu məğlubiyyət seriyası Qaltyenin mövqeyini zəiflədib.

Bildirilir ki, ardıcıl dördüncü məğlubiyyət PSJ-nin sahibləri üçün problem olacaq. Qaltye bilir ki, rəhbərlik növbəti iki matçın nəticələrini diqqətlə izləyəcək. Bunlar Liqa 1-də ”Lill” və ”Marsel”lə görüşlərdir.

PSJ-nin rəhbərləri təkcə nəticələrdən deyil, həm də komandanın ümumi oyunundan narazıdırlar. Xüsusilə tənqidlərə Çempionlar Liqasının “Bavariya” ilə matçının birinci hissəsi səbəb olub. Rəhbərliyin PSJ-nin kəskin geriləməsinin səbəbləri ilə bağlı sualları var. Məsələn, klubun rəhbərləri başa düşmürlər ki, yarımmüdafiənin liderlərindən olan Vitinya necə oyuna heç bir təsiri olmayan futbolçuya çevrilib.

Qeyd olunur ki, PSJ-nin sahibi olan Qətər əmiri Şeyx Təmim bin Həməd Al Tani komandaya Zinəddin Zidanın baş məşqçi gəlməsini arzulayır. Artıq il yarımdır ki, tərəflər əlaqə saxlasalar da, mütəxəssis Fransa yığması ilə işləməyə üstünlük verib. Yığmanın hazırkı çalışdırıcısı Didye Deşamın Fransa millisi ilə müqaviləsinin uzadılması halında vəziyyət dəyişə bilər.

Qeyd edək ki, Kristof Qaltye 2022-ci ilin iyulundan PSJ-nin baş məşqçisidir. Zidanın son klubu isə ”Real” olub. O, 2021-ci ildə Madrid təmsilçisindən ayrılıb.

# Terziç: "İrəliyə doğru mühüm addım atdıq"

***Dortmund “Borussiya”sının baş məşqçisi Edin Terziç Çempionlar Liqasının 1/8 final mərhələsində “Çelsi”yə qalib gəldikləri ilk oyun (1:0) barədə danışıb.***



Mütəxəssis vacib qələbə qazandıqlarını deyib: “Bu gün bizə lazım olan uzun müddət topa nəzarət etmək idi. Biz tez-tez yarımmüdafiədə topu qazanırdıq, amma sonra çox asanlıqla itirirdik. Oyunda yaxşı şeylər çox idi, amma nəticə ən yaxşı idi. Biz bilirik ki, “Çelsi”yə qarşı oynamaq asan deyil, ona görə də bu gün irəliyə doğru mühüm bir addım atdıq

Mənə elə gəlir ki, biz öz məqsədimizi göstərdik. Lakin bəzən də rəqibin işini asanlaşdırdq. onların final üçüncüsünə Özümüzü nə qədər tez-tez çətinliklərə atdığımıza, zərbələrin qarşısını almaq üçün nə qədər çalışdığımıza baxsanız, görərsiniz ki, meydanda ”Çelsi” kimi güclü komanda var. ”Çelsi” inanılmaz keyfiyyətli bir komandadır. Lakin bizim qapıçımız Qreqor Kobel də inanılmaz formadadır. Biz bilirik ki, işlər çətinləşəndə ona arxalana bilərik”.

Qeyd edək ki, bu komandalar arasında martın 7-də Londonda keçiriləcək cavab matçı Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

# Emre Belözoğlu bir illik maaşını bağışladı

***”Başakşehir”in baş məşqçisi Emre Belözoğlu Türkiyədə baş verən zəlzələdən zərərçəkənlərə dəstək olub.***



42 yaşlı mütəxəssis ”Türkiyə Tek Yürek” kampaniyasına qoşulub. Kampaniya çərçivəsində Superliqada mübarizə aparan 4 böyük klubun prezidentləri Dursun Özbek (”Qalatasaray”), Ahmet Nur Çebi (”Beşiktaş”), Ali Koç (”Fənərbaxça”) və Ahmet Ağaoğlu (”Trabzonspor”) zəlzələdən zərəçəkənlər üçün hazırlamış proqramda canlı yayımda yardım toplayıblar.

Aksiyaya qoşulanlar arasında Emre Belözoğlu da var. O, ”Hall Siti”nin prezidenti Acun Ilıcalı vasitəsi ilə bu mövsüm üçün aldığı maaşın hamısını kampaniyaya bağışladığını açıqlayıb. Ilıcalı canlı yayımda ”Emre Belözoğlu bumövsümkü bütün maaşını zəlzələ bölgələrində zərərçəkənlər üçün xərcləyəcəyini bildirib” - deyə qeyd edib.

Qeyd edək ki, ”Türkiyə Tek Yürek” proqramında təxminən 2 saatlıq müddətdə 100 milyard Türk lirəsindən çox yardım toplanıb.



# Polşa - Azərbaycan oyununun hakimləri açıqlandı

***Futzal üzrə DÇ-2024-ün əsas mərhələsində keçiriləcək Polşa - Azərbaycan oyununun hakimləri müəyyənləşib.***

“Unikal” AFFA-nın saytına istinadən xəbər verir ki, qarşılaşmanı Estoniya və Latviyadan olan hakimlər idarə edəcək: Yaqnar Yakobson (Estoniya) 1-ci, İnqus Purins (Latviya) 2-ci, Qriqori Oşomkov (Estoniya) 3-cü hakim kimi iş başında olacaq.

Qeyd edək ki, sözügedən görüş martın 7-də, Bakı vaxtı ilə saat 23:00-da, Koszalin idman zalında keçiriləcək.

# Xavi: "Barselona" Avroliqanın favoriti deyil"

***”Barelona”nın baş məşqçisi Xavi komandasını Avropa Liqasının favoriti hesab etmir.***



Qol.az ”Mundo Deportivo”ya istinadən xəbər verir ki, bu barədə 42 yaşlı mütəxəssis bu gün turnirin pley-offunda ”Mançester Yunayted”ə qarşı keçirəcəkləri ilk matçdan öncə açıqlamasında bildirib. Xavi deyib:

“Avropa Liqası mənə çox çətin turnir kimi görünür. “Barselona”nın favorit olduğunu düşünmürəm. Sürprizlər olmasa, o zaman ”Old Trafford”da çox şey həll olunacaq . Hər iki matçın bərabər səviyyədə keçəcəyini gözləyirəm. Təəssüf ki, cavab oyununu səfərdə keçirəcəyik”.

Qeyd edək ki, bu gün ”Kamp Nou”da oynanılacaq ”Barselona” - ”Mançester Yunayted” görüş saat 21:45-də başlayacaq. Bu komandalar arasında cavab oyunu fevralın 23-də İngiltərədə olacaq.

# UEFA 7 klubumuza pul ödədi

***UEFA-nın “Həmrəylik ödəmələri və uşaq futbolunun inkişafı” proqramı çərçivəsində 2021/22-ci il mövsümü üçün ayrılmış maliyyə vəsaiti AFFA-nın vasitəçiliyi ilə klubların hesabına köçürülüb.***

“Unikal” AFFA-nın saytına istinadən xəbər verir ki, maliyyə vəsaiti Premyer Liqada çıxış edən 7 kluba ödənilib.

“Neftçi” - 271.428 avro
“Zirə” - 271.428 avro
“Qəbələ” - 271.428 avro
“Sabah” - 271.428 avro
“Sumqayıt” - 271.428 avro
“Şamaxı” - 271.428 avro
“Səbail” - 271.428 avro